# Xalq qəzeti

Xalqın qəzeti!

№ 24 (30718) 4 fevral 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## "Murovdağ" Magellan boğazını fəth etdi



Səhifə ⇨ 7

# İqtisadi şaxələndirmə xarici əməkdaşlığı da genişləndirib

*Qeyri-neft ixracı 1 ildə 3,4 milyard dollara yüksəlib*



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) 2024-cü ilin "İxrac icmalı"nı təqdim edib. İcmala əsasən, hesabat dövründə Azərbaycanın qeyri-neft-qaz ixracı 2023-cü illə müqayisədə 0,3 faiz artaraq 3,4 milyard ABŞ dolları təşkil edib. 2024-cü il ərzində yeyinti məhsullarının ixracı 11,3 faiz artaraq 1,03 milyard dollara bərabər olub.**

Keçən il ixrac olunan şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 62,4 faiz artaraq 38,5 milyon dollar, pambıq lifi 45,2 faiz artaraq 178,2 milyon dollar, bitki mənşəli yağlar 32,8 faiz artaraq 28,9 milyon dollar, qiymətli metallar 29,2 faiz artaraq 215,3 milyon dollar, kimya sənayesi məhsulları 18,3 faiz artaraq 293,7 milyon ABŞ dollar, çay 1,6 faiz artaraq 6 milyon dollar, qara metallar 1,9 faiz artaraq 48,2 milyon dollar, alüminium və ondan hazırlanan məmulatlar 1 faiz artaraq 197,2 milyon dollar təşkil edib.

Ötən il ərzində aqrar məhsulların ixracı 2,8 faiz artaraq 789,4 milyon dollara, aqrar-sənaye məhsullarının ixracı 57,3 faiz artaraq 316,1 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 14,1 faiz artaraq 1,11 milyard dollar təşkil edib. Hesabat dövründə ixrac edilmiş qeyri-neft məhsulları sırasında qızıl (211,8 milyon dollar) 1-ci olub. Pambıq mahlıcı (177,1 milyon dollar) 2-ci, tomat (pomidor) (175,4 milyon dollar) 3-cü yerdə qərarlaşıb.

**(ardı 7-ci səhifədə)**

## Birinci vitse-prezident Mehriban Əliyevanın Gənclər Günü münasibətilə paylaşımı

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə rəsmi sosial şəbəkə hesabında paylaşım edib.**




AZƏRTAC xəbər verir ki, Azərbaycan gənclərinə təbriklərini çatdıran Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Qoy hər bir gəncimiz öz zəkası, biliyi, bacarığı, qələbə və nailiyyətləri ilə xalqımızı hər zaman qürurlandırsın!".

## Paşinyanın "kəşfiyyat" səfəri



Səhifə ⇨ 4

# Naxçıvana yol və dünyanı kəsişdirməyən Ermənistan

*Rəsmi İrəvan köhnə "amplua"sındadır*

**Ermənistanın baş naziri Nikol Paşinyan yanvarın 31-də keçirdiyi mətbuat konfransında bildirib ki, regionda kommunikasiyaların bloklanması kontekstində ölkələrin qanunvericiliyi, yurisdiksiyası, suverenliyi və ərazi bütövlüyü əngəl sayıla bilməz. Hökumət rəhbəri ölkəmizin Naxçıvana yolla bağlı irəli sürdüyü şərtlərdən söz açarkən belə deyib. Elə isə onun daha nələri vurğulamasına da nəzər salaq.**



Əvvəlcə onu bildirək ki, Azərbaycan özünün ayrılmaz tərkib hissəsi olan Naxçıvana maneəsiz, heç bir gömrük və sərhəd yoxlanışı olmayan yol istəyir. Prezident İlham Əliyev "Azərbaycandan Azərbaycana yol" məntiqini əsas götürür və mövqeyində qətidir. Birincisi, Naxçıvana maneəsiz yol Ermənistanın kapitulyasiya aktı olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda əksini tapıb. Yeri gəlmişkən, Paşinyan mətbuat konfransında sözügedən bəyanatı imzalamayacağı təqdirdə Ermənistanı hansı acınacaqlı durumun gözlədiyini açıqlayıb və bir növ minnət qoymağı da yaddan çıxarmayıb. Deməli, o, ölkəsinin məğlub dövlət olduğunu rəsmən etiraf edib. Halbuki əvvəllər üçtərəfli Bəyanatın ölkəsinə məğlub kimi yanaşmaq üçün əsas vermədiyini açıqlamış və həyasızlıq etmişdi.

**(ardı 4-cü səhifədə)**

## USAID-in öldürücü bumeranq zərbəsi




Səhifə ⇨ 8

## XVIII əsr Təbrizinə işıq salan araşdırma



Səhifə ⇨ 9

## ABŞ Prezidentinin "gömrük şlaqbaum"u



Səhifə ⇨ 11

## “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.3-1-ci maddəsində, 4.3-2-ci maddəsinin ikinci cümləsində, 4.3-3-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 4.3-2-ci və 4.3-3-cü maddələrinin ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4.3-1-ci maddəsində “orqanın (qurumun) informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sistemi nəzərdə tutulur;

1.4. həmin Qanunun 4.3-3-cü maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

**2.** “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sistemi yaradılsın.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş orqana (quruma) dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. aşağıdakı normativ hüquqi aktları bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.2.1. “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sisteminin əsasnaməsini;

3.2.2. “e-bildiriş”in tərtibi, tətbiqi və uçotu qaydalarını, o cümlədən “e-bildiriş”in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzinin formasını;

3.2.3. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.3-3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması məqsədilə həmin Nazirliyin xəzinə hesabına köçürülən vəsaitdən istifadə qaydasını;

3.3. “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, iki ay müddətində Hökumət Ödəniş Portalının “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sisteminə inteqrasiya edilməsi ilə bağlı zəruri tədbirlər görsün.

**5.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767 (Cild I); 2024, № 7, maddə 788) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə “1.2-ci,” sözlərindən sonra “4.3-1-ci maddələrində, 4.3-2-ci maddəsinin ikinci cümləsində, 4.3-3-cü maddəsinin birinci və ikinci cümlələrində,” sözləri əlavə edilsin;

5.2. 2.2-1-ci bəndə “Qanunun” sözündən sonra “4.3-2-ci və 4.3-3-cü maddələrinin ikinci cümlələrində,” sözləri əlavə edilsin;

5.3. aşağıdakı məzmunda 2.3-2-ci və 2.3-3-cü bəndlər əlavə edilsin:

“2.3-2. həmin Qanunun 4.3-1-ci maddəsində “orqanın (qurumun) informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sistemi nəzərdə tutulur;

2.3-3. həmin Qanunun 4.3-3-cü maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;”.

**6** “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 167 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 1013 (Cild I) 2.1-ci bəndində “, 9.1-ci” sözləri “maddələrində, 9.1-ci maddəsinin birinci cümləsində” sözləri ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 379 (Cild I); 2024, № 6 (I kitab), maddə 662) ilə təsdiq edilmiş “Sənaye parkları haqqında Nümunəvi Əsasnamə”yə aşağıdakı məzmunda 9.2-1-ci, 9.8-1-ci və 9.8-2-ci bəndlər əlavə edilsin:

“9.2-1. Sənaye parkının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.”;

“9.8-1. İdarəedici təşkilat sənaye parkının qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 (iki) iş günü müddətində ərizəçiyə şifahi və ya yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd idarəedici təşkilata təqdim edilir.

9.8-2. Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra sənaye parkının qeydiyyat şəhadətnaməsi 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə verilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edilmədikdə, idarəedici təşkilat tərəfindən sənaye parkının qeydiyyat şəhadətnaməsi ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə göndərilir.”.

**8** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 481 (Cild I) ilə təsdiq edilmiş “Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə”nin 8-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 8.2-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Texnoparkın qeydiyyat şəhadətnaməsinin verilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.”;

8.2. 8.12-ci bəndin birinci cümləsindən “edərək, texnoparkın qeydiyyat şəhadətnaməsini ərizəçiyə təqdim” sözləri çıxarılsın;

8.3. aşağıdakı məzmunda 8.12-1-ci və 8.12-2-ci bəndlər əlavə edilsin:

“8.12-1. İdarəedici təşkilat texnoparkın qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə iki iş günü müddətində ərizəçiyə şifahi və ya yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı tarixdən beş iş günü müddətində texnoparkın qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd idarəedici təşkilata təqdim edilir.

8.12-2. Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra texnoparkın qeydiyyat şəhadətnaməsi iki iş günündən gec olmayaraq ərizəçiyə verilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edilmədikdə, idarəedici təşkilat tərəfindən texnoparkın qeydiyyat şəhadətnaməsi ləğv edilir və bu barədə məlumat iki iş günü müddətində ərizəçiyə göndərilir.”.

**9** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1370 (Cild I) ilə təsdiq edilmiş “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”yə aşağıdakı məzmunda 8.2-1-ci, 8.8-1-ci və 8.8-2-ci bəndlər əlavə edilsin:

“8.2-1. Aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.”;

“8.8-1. İdarəedici təşkilat aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 (iki) iş günü müddətində ərizəçiyə şifahi və ya yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd idarəedici təşkilata təqdim edilir.

8.8-2. Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsi 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə verilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edilmədikdə, idarəedici təşkilat tərəfindən aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsi ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə göndərilir.”.

**10.** Bu Fərmanın 11-ci hissəsi nəzərə alınmaqla, bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

**11.** Bu Fərmanın 5-ci hissəsi “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 20-3-cü maddəsində nəzərdə tutulan dövlət rüsumlarının ödənilməsinə münasibətdə bu Fərmanın 3.2.3-cü yarımbəndində nəzərdə tutulan qayda ilə eyni gündə, digər dövlət rüsumlarının ödənilməsinə münasibətdə isə 2025-ci il iyunun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 1.1.5-ci, 1.1.7-ci, 1.1.8-ci, 1.1.11-ci, 5.9-cu, 5.10-cu, 5.11-ci, 6.2-ci (hər iki halda), 6.8-ci, 6.10-cu, 6.11-ci və 9.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.1.5-ci, 1.1.8-ci, 5.9-cu, 5.10-cu, 5.11-ci və 9.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 6.2-ci maddəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;

1.4. həmin Qanunun 6.8-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 6.10-cu maddəsində “orqan (qurum)” dedikdə odlu silah və onun əsas hissələrinə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 1.1.7-ci və 1.1.11-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinin sosial müdafiəsi ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində (birinci halda), 6.10-cu maddəsində (təhlükəli maddələrə münasibətdə) və 6.11-ci maddəsində nəzərdə tutulmuş “orqan (qurum)” barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. üç ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.4.1. “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 1.1.5-ci maddəsinə uyğun olaraq, minatəmizləmə fəaliyyətinə dair tələbləri;

2.4.2. həmin Qanunun 5.9-cu maddəsinə uyğun olaraq, minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılması qaydasını;

2.4.3. həmin Qanunun 5.10-cu maddəsinə uyğun olaraq, minatəmizləyənlərə standart əməliyyat prosedurlarına dair təlimlərin keçirilməsi qaydasını;

2.4.4. həmin Qanunun 5.11-ci maddəsinə uyğun olaraq, minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılmasına və təlimlərin keçirilməsinə görə haqqın məbləğini;

2.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 sentyabr tarixli 1441 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 981 (Cild I) 1.1-ci bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## P.Bülbüloğlunun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Polad Bülbüloğlu 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” 2009-cu il 24 iyun tarixli 116 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2014-cü il 20 fevral tarixli 111 nömrəli, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2015-ci il 4 may tarixli 516 nömrəli, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2016-cı il 28 aprel tarixli 888 nömrəli və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2015-ci il 4 may tarixli 516 nömrəli, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2016-cı il 28 aprel tarixli 888 nömrəli və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 597 (Cild I) 1-ci hissəsində “4494” rəqəmləri “5651” rəqəmləri ilə, “499 ştat vahidi, strukturuna daxil olan qurumların işçilərinin say həddi 2490” sözləri “618 ştat vahidi vəzifəli şəxs və 204 ştat vahidi xidmət heyəti olmaqla, cəmi 822 ştat vahidi, strukturuna daxil olan qurumların işçilərinin say həddi 2641 ştat vahidi vəzifəli şəxs və 683 ştat vahidi xidmət heyəti olmaqla, cəmi 3324” sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ilin sentyabr ayında dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 140 ili tamam olur.

Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfələr vermiş qüdrətli sənətkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünün layiqincə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## İran Prezidenti Azərbaycana səfərə dəvət olunub

**İran İslam Respublikasını Prezidenti Məsud Pezeşkian Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevi qəbul edib.**



Bu barədə Azərbaycanın İrandakı Səfirliyi "X"dəki hesabında məlumat yayıb.

H.Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını və ölkəmizə səfərə dəvətini İran Prezidentinə çatdırıb.

İran İslam Respublikasının Prezidenti salamlara, dəvətə görə təşəkkürünü bildirib və onun da səmimi salamlarını Prezident İlham Əliyevə çatdırılmasını xahiş edib.



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədian ilə siyasi, iqtisadi əməkdaşlıq və regional təhlükəsizlik məsələlərini müzakirə edib.**

Bu barədə Prezidentin köməkçisi sosial şəbəkədə yazıb.

"Tehrana səfər çərçivəsində İran İR Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədian ilə görüşdüm. Görüşdə Bakıda aparılmış müzakirələrin davamı olaraq iki ölkə arasında siyasi, iqtisadi əməkdaşlıq və regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi apardıq və Şimal–Cənub Nəqliyyat Dəhlizinin əhəmiyyətini xüsusilə qeyd etdik", – o qeyd edib.

**Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev İrana səfəri çərçivəsində bu ölkənin Xarici Əlaqələr üzrə Strateji Şurasının sədri Kamal Xərrazi ilə iki ölkənin elmi-tədqiqat mərkəzləri arasında əməkdaşlıq məsələlərini müzakirə edib.**

Bu barədə Azərbaycanın İrandakı səfirliyinin mətbuat xidməti məlumat yayıb.

"Görüşdə iki ölkənin elmi-tədqiqat mərkəzləri və ictimai-siyasi fikir daşıyıcıları arasında əməkdaşlıq və qarşılıqlı səfərlərin təşkili məsələləri vurğulanıb", – Azərbaycanın Tehrandakı diplomatik missiyasının sosial şəbəkə hesabında qeyd olunub.

**Azərbaycan və İran arasında qarşılıqlı etimad artırılması tədbirlərini davam etdirmək barədə razılıq əldə olunub.**

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sosial şəbəkədə yazıb.

"Tehrana səfər çərçivəsində İran İslam Respublikası Prezidentinin siyasi müşaviri Dr. Mehdi Sanai və xarici işlər naziri cənab Abbas Araqçı ilə səmərəli müzakirələr apardıq. Azərbaycan – İran dostluq münasibətlərinin sülh şəraitində birgəyaşayış, daxili işlərə qarışmama və mehriban qonşuluq prinsipləri əsasında inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

3+3 regional formatı, Qoşulmama Hərəkatı (NAM), İslam Əməkdaşlıq Təşkilatı (OIC), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (CICA) və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq müzakirə edildi. Qarşılıqlı etimadın artırılması tədbirlərini davam etdirmək barədə razılıq əldə olundu.

Ağbənd – Naxçıvan və Şimal-Cənub Nəqliyyat Dəhlizləri iki ölkənin ortaq maraqlarına xidmət edən vacib regional və transregional layihələr kimi qeyd olundu", – o qeyd edib.

***XQ***

## Regional təhlükəsizlik məsələləri müzakirə edilib

**Fevralın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Latviyanın xarici işlər naziri Baiba Braje arasında telefon danışığı olub.**




Telefon danışığı zamanı Azərbaycan və Latviya arasında mövcud əlaqələr gündəliyində duran məsələlər, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Ölkələrimiz arasında bir sıra istiqamətlər üzrə ikitərəfli, o cümlədən regional və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın inkişafında qarşılıqlı səfər və təmasların əhəmiyyəti qeyd olunub.

Telefon danışığında, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

## R.E.Əzizovun Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rüfət Eyvaz oğlu Əzizov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## R.E.Əzizovun Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rüfət Eyvaz oğlu Əzizov Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## Terrorçu qruplaşma zərərsizləşdirilib

**Azərbaycan Respublikası ərazisində beynəlxalq terror təşkilatları ilə əlaqəli olan radikal dini-ekstremist qruplaşma üzvlərinin terror-təxribat əməllərinin müəyyən edilməsi və qanunazidd fəaliyyətlərinin qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən birgə kompleks tədbirlər görülüb.**




Həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə əvvəllər "Meşə qardaşları" adlı terror qruplaşmasının fəaliyyətində iştirak etdiyinə görə məhkum olunmuş Qədir Hacıyevin Qusar rayon sakinləri - Kamran Kərimxanov, Ümüd Güləliyev, Valerik Adilov, Riyad Səfərəliyev, Rövşən Laçınov, Nazim Zəkiyev və qeyriləri ilə cinayət əlaqəsinə girməsi, onların birlikdə Qusar rayonu ərazisində terror aktları hazırlamaları, həmin rayonun Hil, Cibir və Yasab kəndlərini əhatə edən meşə massivində yeraltı sığınacaqlar yaratmaları, bu sığınacaqları silah-sursat, partlayıcı maddələr, texniki qurğular və digər zəruri ləvazimatlarla təchiz etmələri təsbit olunub.

İlkin mərhələdə, qruplaşma üzvü olan Əlipaşa Kamilovun yeri müəyyən edildikdən sonra istintaqa cəlb edilməsi məqsədilə keçirilmiş əməliyyat zamanı o, Qusar şəhərində gizləndiyi ünvanda xüsusi təyinatlı əməkdaşlara silahlı müqavimət göstərərək 2 ədəd "RGO-78" markalı əl qumbarası atıb, nəticədə xüsusi təyinatlılardan biri yaralanıb, Əlipaşa Kamilov isə zərərsizləşdirilib.

Bu barədə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili İşlər Nazirliyinin birgə məlumatında bildirilib.

Məlumatda görə, davam etdirilən əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində Cibir kəndi yaxınlığında yerləşən meşəlik ərazidə gizli şəkildə yaradılmış sığınacaqlar və saxlanc yerləri aşkar olunub, həmin yerlərdə gizlənən qanunsuz silahlı birləşmənin üzvləri - Qədir Hacıyev, Riyad Səfərəliyev, Valerik Adilov və Ümüd Güləliyev silahlı müqavimət göstərərək partlayıcı vasitələri işə salarkən məhv olublar.

Aşkar edilmiş sığınacaqlara keçirilən baxış zamanı oradan partlayıcı qurğuların hazırlanması üçün nəzərdə tutulan torf, aseton, detonatorlar, məsafədən idarə edilə bilən partlayıcı mexanizmlər, qəlpə qismində istifadə edilən armatur və qurğuşun hissələri, 2 ədəd "Kalaşnikov" avtomatı, 3 ədəd ov tüfəngi, patronlar və avtomat gülləri, eləcə də beynəlxalq səviyyədə terror təşkilat kimi tanınmış qanunsuz silahlı birləşmənin simvolu olan bayraq müəyyən edilərək götürülüb.

Həmçinin görülmüş təxirəsalınmaz tədbirlərlə terrorçu qruplaşmanın üzvlərindən olan Nazim Zəkiyevin Hil kəndinin yaxınlığında yerləşən fermada, Kamran Kərimxanov və Rövşən Laçınovun isə Hil kəndi ərazisində gizlənmələri müəyyənləşdirilib və onlar hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı silahlı müqavimət göstərərkən zərərsizləşdirilib.

Araşdırmalarla cinayətkar birliyə daxil olan şəxslərin dairəsi, təşkilatlanma forması, təchizatı, planları ilə bağlı detallar və dəlillər müəyyən edilib.

Qanunsuz olaraq amonium-nitrat, güclü yandırıcı xüsusiyyətə malik torf, detonatorlar və od ötürən qaytanlar əldə edib onlardan istifadə etməklə kustar üsulla partlayıcı qurğular hazırlayan və onları Qusar şəhərində yerləşən "Motel" adlı qonaq evində və onun yaxınlığındakı avtoyuma məntəqəsinin damında gizlədərək saxlayan Etibar Əhmədov qeyd olunan əməlləri davam etdirərkən həmin qurğuların partlaması nəticəsində xəsarət alıb.

Habelə, Qusar rayon sakinləri olan Şərafəddin Mahmudovun, Etibar Əhmədovun və qeyrilərinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmənin fəaliyyətində iştiraklarına, o cümlədən bu silahlı birləşməni partlayıcı maddələrlə və digər ləvazimatlarla təchiz etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunan cinayətkar dəstənin üzvləri - Etibar Əhmədov, Rəhim Mirzəbəyov, David Rəşidov, Şərafəddin Mahmudov, Abugül Babayev və Elçin Əlirzayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28,214.2.1, 28,214.2.3, 28,214.2.6-cı (cinayətkar birlik (cinayətkar təşkilat) halında odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində terrorçuluğa hazırlıq) və digər maddələri ilə istintaqı aparılan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işləri üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***XQ***

# Naxçıvana yol və dünyanı kəsişdirməyən Ermənistan

(əvvəli 1-ci səhifədə)



İkincisi, Azərbaycan tarixən özününkü olan ərazidə hərəkət azadlığı istəyir. O ərazidə ki, xalqımızdan ədalətsiz şəkildə alınıb. Axı yüz illik müddət elə də böyük zaman kəsiyi deyil. Hər şey gün kimi aydındır. Odur ki, ölkəmizin Naxçıvana maneəsiz yol tələbi həm də haqlıdır. Bu tələbi hansısa formada fərqli təqdim etməyə, Azərbaycanın rəhbərliyinə qara yaxmağa heç kəsin, o cümlədən Ermənistan rəhbərliyinin ixtiyarı yoxdur.

Bəli, N.Paşinyanın haqqında söz açdığımız fikrində maraqlı detal da vardır. Bəlkə, o, özü də fərqinə varmadan konstruktiv ifadə işlədir. Onun regionda kommunikasiyaların bloklanması kontekstində ölkələrin qanunvericiliyinin, yurisdiksiyasının, suverenliyinin və ərazi bütövlüyünün əngəl sayıla bilməyəcəyinə dair söylədiklərini mövcud prizmadan qiymətləndirmək mümkündür. Əslində, Azərbaycanın dediyi də elə budur ki, Naxçıvana yol Ermənistanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirəcək kazus olmamalıdır. Onsuz da rəsmi Bakı İrəvana qarşı hansısa ərazi iddiası irəli sürmür.

Ancaq Paşinyanın nəzərdə tutduğu tamam başqa məqamdır və bu, baş nazirin növbəti fikirlərindən də görünür. O, faktiki olaraq, bildirir ki, Ermənistan Azərbaycanın digər ərazilərinin sonuncu nöqtəsi ilə Naxçıvan arasındakı 43 kilometrlik hissənin girişini və çıxışını nəzarətdə saxlamalıdır. Təsəvvür edin, qısa məsafəli bölgədə hərəkətə malik böyük nəqliyyat tranziti təxminən bir saat içində iki dəfə gömrük və sərhəd nəzarətindən keçməlidir. Əlbəttə, vaxt itkisi yaranacaq, ləngimələr olacaq.

Digər tərəfdən, vaxt itkisi bir yana, qlobal kommunikasiya habı üzrə hərəkətin Ermənistandan asılı hala düşmə reallığı var. Azərbaycan bununla razılaşa bilməz. Ona görə ölkəmiz İrəvanın razılaşmayacağı təqdirdə, İran üzərindən hərəkət variantını seçir. N.Paşinyan da mətbuat konfransı zamanı məsələyə toxunub. Onun təxminən iki il əvvəl də mövzudan söz açdığı məlumdur. İndi Nikol əvvəlki fikirlərini təkrarlayaraq bildirib ki, Ermənistan Azərbaycanın Naxçıvana yol baxımından İranı seçməsinə etiraz etmir. Belə ifadə tərzi isə yersizdir, çünki hər bir halda Bakı müstəqil seçim imkanına malikdir. Amma Nikolun dildə dediyi başqadır, əməli bir başqa.

Məlumdur ki, ABŞ hələ 2023-cü ilin sonuna yaxın Azərbaycanın Naxçıvana yol baxımından Ermənistanı deyil, İranı seçməsinə kəskin reaksiya bildirmişdi. Hətta hədə də səsləndirmişdi. Təxminən belə: Əgər Naxçıvana yol İrandan keçsə, Bakı Birləşmiş Ştatların təzyiqi ilə üzləşəcək. Bu məntiqi inkişaf etdirmək üçün ABŞ-ın bəzi ermənipərəst konqresmenləri müxtəlif qondarma qanun layihələrini də dövriyyəyə atmışdılar. Sözümüz odur ki, Paşinyana Qərbin erməni təəssübü yaxşı məlumdur və o, sırf bu təəssübün üzərinə oyun oynamaqla məşğuldur.

Qərb çalışır ki, Cənubi Qafqazdakı erməni avantürizmi qorunsun. İndi bu avantürizm Rusiyanın bölgədən tamamilə sıxışdırılmasını hədəf seçir. Eyni zamanda, Azərbaycanın daimi təzyiqdə saxlanılmasını. Hazırda Ermənistan buna görə silahlandırılır. Heç şübhəsiz, rəsmi İrəvan Naxçıvana yol məsələsində öz mövqeyində qalsa, Bakı onsuz da reallığa söykənmiş İran variantını qətiləşdirəcək. Belə bir durumda Ermənistan otuz ilə yaxın müddətdə olduğu kimi, yenə dalanda qalacaq. Yəni Paşinyanın "Biz İranın təklif etdiyi şərtlərlə bu yolu təklif etməyə hazır olduğumuzu deyirik" şəklində açıqlama verməsi mənasızdır. Birincisi, nəzəri baxımdan İran Ermənistan deyil və ya Ermənistan heç vaxt İran ola bilməz. İkincisi, otuz ilə yaxın davam etmiş işğal illərində Azərbaycan Naxçıvanla quru yol əlaqəsini İran üzərindən gerçəkləşdirib və bu baxımdan heç bir problem qeydə alınmayıb. Yəni İran təhlükəsizlik təminatları Ermənistanın təhlükəsizlik təminatlarından qat-qat üstündür, sınaqlardan çıxıb.

N.Paşinyan onu da bildirib ki, ölkəsi Naxçıvana yolun açılmasında, habelə regional kommunikasiyalarda iştirakda maraqlıdır. "Ermənistanın da bu yollardan istifadə etmək istədiyini nəzərə alsaq, biz də müəyyən sadələşdirmələrə hazırıq", – deyən baş nazirin bu fikrini əvvəllər də dilə gətirdiyi məlumdur. Ancaq, hər ehtimala, söhbət hansı sadələşdirmələrdən gedir, Paşinyan məsələyə aydınlıq gətirmir. Halbuki əsas müzakirə mövzusu budur. Deməli, Nikol söz xətrinə söz deməklə məşğuldur.

Yeri gəlmişkən, ötən il Azərbaycan, Rusiya və Ermənistanın baş nazirləri müavinlərinin birgə işçi qrupunun iclasında Naxçıvana yol məsələsi müzakirə edilmişdi. Hətta ilkin mərhələdə Ermənistanın ərazi bütövlüyünü və suverenliyini şübhə altına almayacaq variant da razılaşdırılmışdı. Lakin sonrakı proseslər onu göstərdi ki, İrəvan məsələyə etiraz edir. Beləliklə, sözügedən işçi qrupunun fəaliyyəti pozulmuşdu.

N.Paşinyan indi də pozuculuqla məşğuldur. O deyib ki, Ermənistan regional kommunikasiyaların açılması ilə bağlı yanlış şərhlərin aradan qaldırılması, onların qarşısının alınması üçün "Dünyanın kəsişməsi" layihəsinin həyata keçirilə biləcəyini vurğulayıb. Sən demə, bu layihə Nikolun haqqında söz açdığı sadələşdirmələrlə bağlı komponentləri özündə cəmləşdiribmiş. İndi nə edək? Paşinyanın "Dünyanın kəsişməsi" avantürasında nələrin əksini tapdığına baxaq? Axı məlumdur ki, bu layihə Azərbaycanın Naxçıvana yolla bağlı irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsünə alternativ kimi meydana çıxıb. Məqsəd isə yuxarıda da bildirdiyimiz kimi, erməni amilini diri saxlamaqdır.

Sonda onu da deyək ki, Ermənistanın baş nazirinin mətbuat konfransında Naxçıvana yol və regional kommunikasiyaların açılmasına dair səsləndirdiyi fikirlərə başqa rakurslardan da yanaşmaq mümkündür. Ancaq buna ehtiyac duymuruq. Çünki ortada konkret mənzərə var. Bu mənzərə onu deməyə əsas verir ki, rəsmi İrəvan Bakının irəli sürdüyü tələbi yerinə yetirmək istəmir. Ən pisi isə budur ki, sürətlə silahlanma yolu tutan Ermənistanın regional kommunikasiyaları təhdid mahiyyəti də özünü qabarıq şəkildə göstərir. İndiki durumda bu sərsəm mahiyyətin mövcudluğu təkcə Paşinyan hakimiyyətinin deyil, ümumən Cənubi Qafqaz regionunda pozuculuq niyyətlərinə baş vurmuş xarici dairələrin sifarişidir. Nikol həmişəki kimi, sifarişli davranır. Necə deyərlər, odla oynadığının fərqinə varmır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paşinyanın "kəşfiyyat" səfəri

## *Yaxud hayların Qərbə inteqrasiya siyasətinə "sadiqlik"də kilsə riyakarlığı*



**Ermənistan hakimiyyətinin Ağ evin yeni sahibinin Cənubi Qafqazla bağlı yürüdəcəyi siyasətlə bağlı ciddi narahatlığının olduğu məlumdur. Elə İrəvanın gethagetdə Bayden administrasiyası ilə "strateji əməkdaşlıq xartiyası" imzalaması faktı dolayısı ilə bu narahatlığından irəli gəlmişdir. Elementar diplomatik məntiqə görə, əgər rəsmi İrəvan Vaşinqtondakı yeni komandanın Ermənistanla normal münasibətlərə maraq göstərəcəyinə əmin olsaydı, bu halda həmin "xartiya"nı Donald Tramp administrasiyası ilə imzalayardı. Bunun üçün cəmi üç gün səbr etmək lazım idi.**

Deməli, Paşinyan iqtidarının beynində okeanın o tayındakı "strateji müttəfiqi" ilə bundan sonra necə davranacağı yönündə qeyri-müəyyənlik var. Aşkar görünən odur ki, respublikaçıların Dövlət Departamenti Cənubi Qafqaza sabiq direktor Antoni Blinken qədər maraq göstərməyəcək. Hələlik ABŞ-ın 47-ci Prezidenti bizim bölgə ilə bağlı heç bir açıqlama verməyib. Paşinyanın özünün mətbuat konfransında verdiyi açıqlamasına görə, Vaşinqtona səfəri çərçivəsində Prezident Donald Trampla görüşü planlaşdırılmır. Erməni mediası xəbər verir ki, bu barədə Paşinyanın özü mətbuat konfransında bildirib: "ABŞ Prezidenti ilə görüş planlaşdırılmır, hazırda proqramımızda belə bir məqam yoxdur. Amma bu, son dərəcə vacib bir səfərdir".

Maraqlıdır ki, bir müddət bundan əvvəl erməni mediası Nikol Paşinyanın ABŞ-a səfərini təşkil etmək və Donald Trampla görüşə razılıq alması üçün XİN başçısı Ararat Mirzoyana göstəriş verdiyini yazmışdı. Həmin yazıda iddia edilirdi ki, Mirzoyan bu məsələni artıq vəzifəsini təhvil verən Dövlət katibi Antoni Blinkendən xahiş edib. Sonuncu isə bu görüşü təşkil edəcəyinə söz veribmiş. Açıq qalan sual odur ki, respublikaçı Prezident Tramp demokrat və Dövlət Departamentinin eks-rəhbəri Blinkenin xahişini nəzərə alacaqmı?

**

Xatırladaq ki, dünən Nikol Paşinyan və xanımı Anna Akopyan Din Azadlığı üzrə 5-ci İllik Beynəlxalq Sammitdə, həmçinin "Milli dualarla səhər yeməyi" tədbirində iştirak etmək üçün Vaşinqtona gedib. İşgüzar xarakter daşıyan bu səfərin hansı alt niyyətlərə xidmət edəcəyini güman edə bilərik.

Nikol Paşinyanın sözlərinə görə, o, komandası ilə məsləhətləşdikdən sonra bu tədbirdə mütləq iştirak etməli olduğu qənaətinə gəlib. Onun "Milli dualarla səhər yeməyi"ndə çıxış edəcəyi də gözlənilir. Fevralın 7-dək davam edəcək səfər əsnasında Ermənistan baş nazirinin Ağ evin yeni administrasiyası ilə müəyyən təmaslar yaratmaq, dəyirmi kabinetdəki yeni ab-havanı, münasibətlərin mümkün perspektivini öyrənmək üçün kəşfiyyat xarakteri daşıdığını söyləmək olar. Sadəcə olaraq, bu zaman bir incə nüansı vurğulamaq vacibdir: Diplomatik addımların səmərəliliyi və effektivliyi son nəticə ilə qiymətləndirilir. Çox güman ki, bu barədə heç Paşinyanın özündə aydın təsəvvür yoxdur. Antoni Blinkenin rəhbərlik etdiyi Dövlət Departamenti Cənubi Qafqazda hansı mübət nəticələrə nail oldu? Ermənistan onun ikitərəfli siyasətindən nə əldə etdi? Mənzərə göz qabağındadır: nə iki ölkə arasında sülh müqaviləsi bağlanıb, nə də bölgədə geosiyasi rəqabət səngiyib. Avropa– Rusiya–İran üçbucağında fikir ayrılıqları və mövqelərin toqquşduğu nöqtələr hələ də qalmaqdadır. İrəvan isə yenə eyni vaxtda bir neçə stulda oturmaq vərdişindən əl çəkmək istəmir...

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** Nikol Paşinyanın Birləşmiş Ştatlara "işgüzar" adlandırdığı səfəri ilə bağlı XQ-yə bunları bildirdi: "Sadəcə, orası maraqlıdır ki, bir dövlətin baş naziri rəsmi dəvət olmadan başqa bir ölkəyə işgüzar səfərinin hansı əhəmiyyəti ola bilər? Dini konfransda iştirak edəcəyini açıqlayıb. Əlbəttə, onun müşavirləri Vaşinqtonda rəsmi səviyyədə müəyyən görüşləri təşkil etməyə çalışacaqlar. Ağ evdə rəsmi qəbul nəzərdə tutulmasa da, Dövlət katibi, onun müavini, yaxud Konqresdə hansısa komitə sədri ilə görüşünə şərait yaratmaq cəhdləri ola bilər. Belə təşəbbüslərin ABŞ-dakı erməni lobbisi tərəfindən ediləcəyi ehtimalı yüksək deyil. Çünki bu ölkədəki hay lobbisinin Paşinyana münasibəti birmənalı deyil. Düzdür, ona dəstək verənlər də var, amma onların sayı baş naziri xoşlamayanların sayından xeyli azdır. Səbəb də aydındır. Nikol Paşinyanın Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımasının, Türkiyə ilə intensivləşən dialoqunun erməni lobbisinin ürəyincə olmadığı şəksizdir. Ona görə ki, erməni lobbisinin xəstə təfəkkürü Ermənistanın Azərbaycanı və Türkiyəni düşmən obrazında görməsini diktə edir. Nə sülh sazişi imzalanmalıdır, nə də bu istiqamətdə danışıqlar aparılmalıdır. Paşinyanın məntiqinə görə, Vaşinqtona səfərini əhəmiyyətli edən amil rəsmi İrəvanın xarici və təhlükəsizlik siyasətini şaxələndirməsidir. Buraya Rusiya ilə təmasları daha da uzaqlaşdırmaq da daxildir. Bundan ötrü Ermənistan hakimiyyəti həm Avropadan, həm də ABŞ-dan dəstək almağa çalışır. Əgər buna bənzər beynəlxalq dini konfrans Moskvada keçirilsəydi, inanmaq çətindir ki, Paşinyan həmin tədbirə gedər və orada çıxış edərdi. Amma, o, Vaşinqtonda rəsmi səviyyədə qəbul olunmayacığını bilərək, hansısa adi bir tədbirə yola düşür və bununla Rusiyaya mesaj göndərir. Yəni Ermənistan ABŞ-la müxtəlif istiqamətlərdə əməkdaşlığı genişləndirmək istəyir".

*

Bəli, İrəvan Rusiyadan tamam qopmaq və Qərbə inteqrasiya siyasətinə "sadiqliyini" nümayiş etdirməkdən ötrü bütün vasitələrə əl atır. İntəhası, Paşinyan hakimiyyəti özünün bu siyasətinin Qərbə inteqrasiya ilə nəticələnəcəyinə əmin deyil. Axı Ermənistan hakimiyyəti üçün Zelenskinin son bəyanatları və NATO-ya üzvlüklə bağlı ümidsizliyi çox şeylərdən xəbər verir. Qərb uzun müddət idi ki, Şimali Atlantika Alyansına üzv olacağı ilə bağlı Kiyevə söz verirdi. Axırı nə oldu? Kiyev Moskvaya qarşı açıq hərbi münaqişəyə təhrik edildi və hazırda Ukrayna qarşısında heç bir aydın perspektiv görmür. Məgər, bu, Qərbin postsovet məkanındakı respublikalara qarşı yürütdüyü qərəzli və məkrli siyasətinin bariz nümunəsi deyilmi?

İndi İrəvan "strateji müttəfiqinə" hansı diplomatik bucaq altında və necə yanaşacağı üzərində baş sındırmaqdadır. Bob Menendez qalmaqalından və biabırçılığından sonra ABŞ-dakı erməni lobbisinin qanunverici orqanda pulla, bahalı hədiyyələrlə şirnikləndirmək yolu ilə öz tərəflərinə çəkmək üçün senator və konqresmenlər arasından seçim şansı xeyli daralıb. Erməni əsilli arvadının felinə uyan və 71 yaşında 11 il həbsxana cəzası alan Menendezin acı aqibəti digərlərinə də dərs olmalıdır.

Paşinyanın ABŞ-a səfəri ilə bağlı diqqət yetirilməyə layiq başqa bir məqam da var. Ermənistanın rəsmi təbliğat maşını bu səfəri Ağ evdəki yeni administrasiyanın dəstəyini qazanmağa hesablanmış addım kimi ictimai rəyə sırımağa çalışsa da, hayların müstəqil və müxalif mövqeli ekspertləri bunun belə olmadığını iddia edirlər. Üzdə görünən odur ki, hayların baş naziri, faktiki olaraq, ABŞ-a beynəlxalq dini konfransda iştirak etməkdən ötrü gedib. Amma məsələ ondadır ki, həmin sammit artıq 5-ci dəfədir keçirilir və bugünədək tədbirdə, demək olar ki, heç bir ölkənin lideri iştirak etməyib. Sammitlə bağlı o da xüsusi vurğulanır ki, 2019-cu ildə, Donald Trampın birinci prezidentliyi dövründə yaradılan bu format Çinə qarşı qurulub. Yəni hay ekspertləri bildirirlər ki, bu səfərin Ermənistana heç nə verməyəcəyi bir yana, əksinə, rəsmi İrəvan Çinin timsalında özünə daha bir düşmən qazanmış olacaq. Həm də dünyanın ən nəhəng düşmənini!

Ermənistanın tarixən kilsə tərəfindən idarə edildiyini yazmışdıq. Fəqət, 2018-ci ildə hakimiyyətə gələn Nikol Paşinyanın kilsə ilə açıq qarşıdurmaya getməsinin, bu "tarixi Qriqorian ənənəsi"ni sındırmağa yönəlik addımlarının şahidi olduq. Amma buna baxmayaraq, yeri gələndə rəsmi İrəvanın din amilindən, diaspor və lobbiçilərin də dəstəklədiyi kilsədən yararlanmaq cəhdləri də az olmayıb. Bu gün biz baş nazir Paşinyanın ifasında düşünülmüş növbəti "dini tamaşaya" baxırıq. Erməni diasporunun kilsə ilə daim eyni platformadan çıxış etdiyini nəzərə alsaq, İrəvanın məhz bu amilə söykənərək xarici siyasətində korrektələrə vadar olduğunu söyləmək mümkündür. Onun Qərbə inteqrasiya siyasi kursuna "sadiqliyini" sübut etməkdən ötrü dini riyakarlıq alətinə çevirməkdən çəkinməməsi başadüşüləndir. Amma Paşinyan "real Ermənistan" deyəndə həm də kilsənin ölkənin idarəçiliyinə müdaxiləsinin yolverilməz olduğunu nəzərdə tutur.

***İmran BƏDİRXANLI***
***XQ***

# Milli Məclisin yaz sessiyasının ilk plenar iclası



**Fevralın 3-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2025-ci ilin yaz sessiyasının ilk plenar iclası keçirilib. Milli Məclisin Sədri yaz sessiyasını açıq elan etdikdən sonra Azərbaycanın Dövlət himni səsləndirilib.**

Sonra çıxış edən Sahibə Qafarova ötən sessiyanı uğurlu adlandırıb, parlamentin beynəlxalq fəaliyyətinin sessiyalar arasındakı dövrdə də davam etdiyini vurğulayıb. O, yaz sessiyasının qanunvericilik işləri planının hazırlandığını diqqətə çatdırıb.

Sonra iclasın gündəliyi qəbul edilib və cari məsələlərin müzakirəsinə başlanılıb.

Daha sonra gündəlikdəki 16 məsələnin müzakirəsi keçirilib. İlk 4 məsələ Milli Məclisin qərar layihələri olub. Əvvəlcə parlamentin qanunvericilik işləri planı haqqında qərar layihəsi qəbul edilib. Sonra Milli Məclisin 7 üzvdən ibarət Hesablayıcı komissiyası, 11 üzvdən ibarət İntizam komissiyası yaradılıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Milli Məclisin Qərarında dəyişiklik edilməsi barədə məsələ ilə əlaqədar çıxış edib. Hazırda parlamentdə 103 dostluq qrupunun fəaliyyət göstərdiyini deyən Səməd Seyidov Oman Sultanlığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasının vacibliyindən danışıb. O, işçi qrupunun rəhbəri qismində deputat Səbinə Salmanovanın namizədliyinin təklif edib. Milli Məclisin bu qərar layihəsi də səsə qoyularaq qəbul olunub.

Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in və "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" qanun layihələri barədə məlumat verib. Hər iki qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Yubiley medalı haqqında Əsasnamədə "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı ilə media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin təltif edildiyi təsbit olunur.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyətindən söhbət açıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsindən bəhs edib. Qanun layihələri bir oxunuşda səsə qoyularaq qəbul edilib.

Növbəti 2 məsələ üçüncü oxunuşda olan qanun layihələri olub. Mədəniyyət komitəsi sədrinin müavini Günay Əfəndiyeva "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Növbəti beş qanun layihəsi isə birinci oxunuşda təqdim edilib. Azər Əmiraslanov "Aviasiya haqqında" Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. "Sosial sığorta haqqında" Qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Əmək və sosial siyasət komitəsinin üzvü Nigar Məmmədova məlumat verib. "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Gündəliyin sonuncu məsələsi - Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov məlumat verib. Qanun layihələri səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

**XQ**

# Azərbaycan XİN Pakistana başsağlığı verib

**Azərbaycan Xarici İşlər Nazirliyi Pakistanda baş verən terror aktı ilə bağlı paylaşım edib.**

Nazirlik bu barədə rəsmi "X" sosial media hesabında yazıb.

Paylaşımda Pakistanla həmrəylik qeyd olunub:

"Pakistan İslam Respublikasının Bəlucistan əyalətindəki terror aktı xəbəri bizi dərindən kədərləndirdi. Düşüncələrimiz və dualarımız qurbanların ailələri ilə birlikdədir, bu çətin zamanda Pakistanla həmrəyik. Terrorizmin dağıdıcı təsiri ilə üzləşmiş Azərbaycan bu təhlükəyə qarşı bütün səyləri dəstəkləməyə tam sadiqdir".

Qeyd edək ki, Pakistanın Bəlucistan əyalətində baş verən silahlı insidentlər zamanı 18 pakistanlı hərbçi həlak olub, 23 yaraqlı isə zərərsizləşdirilib.

# Azərbaycan–Monqolustan əməkdaşlığı genişlənir

**Dünən Ulan-Batorda Monqolustan və Azərbaycan Xarici İşlər nazirlikləri arasında ikinci siyasi məşvərət görüşü keçirilib.**



İclasa Monqolustan XİN-in dövlət katibi Munxtuşiq Lxanaacav və Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov sədrlik ediblər.

Görüş zamanı tərəflər Monqolustan və Azərbaycan arasında qarşılıqlı siyasi və iqtisadi əlaqələrin mövcud vəziyyəti, həmçinin iqtisadiyyat, ticarət, investisiya, nəqliyyat, energetika, mədəniyyət və təhsil kimi qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

Bundan başqa, tərəflər regional və çoxtərəfli əməkdaşlıq məsələlərini, eləcə də 2025-ci il ərzində yüksək səviyyəli səfər, görüş və proqram mübadiləsinin təşkilini müzakirə ediblər.

**XQ**

# Səudiyyə xurması 5 min ailəyə paylanıb



**Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli Sosial Xidmətlər Agentliyində olub. Səudiyyə Ərəbistanından ölkəmizə göndərilmiş 20 tonluq xurma sovqatı görüşdə böyük razılıqla xatırlanıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov göstərilən diqqətə görə təşəkkür edib. O, qonaqlara agentliyin fəaliyyət istiqamətləri, həssas əhali qruplarından olan şəxslərə göstərilən xidmətlər və sosial müdafiə tədbirləri barədə məlumat verib.

Səfir İssam bin Saleh əl-Cuteyli XQ-yə müsahibəsində deyib ki, sovqatın paylanmasında bizə dəstək olan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Qafqaz Müsəlmanları İdarəsinə, eləcə də əlaqədar qurumlara təşəkkür edirik. Ramazan bayramı öncəsi belə təşəbbüslər müsəlman cəmiyyətlərində xoş qarşılanır.

Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədr müavini Zaur İbrahimov isə bildirib ki, sovqat Abşeron, Bakı və Sumqayıt şəhərləri ərazisində yaşayan həssas əhali qruplarından olan 5 min ailəyə paylanıb.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**

# Misirlə fövqəladə hallar müzakirəsi

**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Misirin Azərbaycandakı səfiri Hişam Mohamed Nağı Abdel Həmid ilə görüşüb. Bu barədə Fövqəladə Hallar Nazirliyi məlumat yayıb.**



Kəmaləddin Heydərov Azərbaycan ilə Misir arasında müxtəlif sahələrdə uzun illərə söykənən sıx əlaqələrin mövcud olduğunu xatırladıb. Bu çərçivədə, nazir bu gün keçirilən görüşün iki ölkənin fövqəladə hallarla mübarizə üzrə uyğun qurumları arasında münasibətlərin formalaşması baxımından faydalı olacağına əminliyini ifadə edib.

Azərbaycanda fövqəladə halların idarə olunması sahəsində görülən işlər barədə qonağa ətraflı məlumat verən nazir Azərbaycanın müvafiq dövlət qurumu ilə Misirin aidiyyəti dövlət qurumları arasında fövqəladə halların idarə olunması və mülki müdafiə sahəsində səmərəli əməkdaşlıq üçün mövcud potensialdan danışıb.

Hişam Mohamed Nağı Abdel Həmid iki ölkə arasında münasibətlərin daim genişləndiyini xatırladıb, bu çərçivədə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində uyğun qurumlar arasında münasibətlərin formalaşdırılmasının qarşılıqlı faydasından danışıb.

**XQ**

# Mərkəzi Seçki Komissiyasının iclası



**Məzahir Pənahovun sədrliyi ilə fevralın 3-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

İclasda 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər, maraqlı subyektlərin və ərizəçilərin də iştirakı ilə geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

Mərkəzi Seçki Komissiyası daxil olan müraciətlərin və müxtəlif mənbələrdən əldə edilən məlumatların tam şəffaf, obyektiv və hərtərəfli araşdırılması nəticəsində 81 saylı İmişli seçki dairəsinin 42, 43, 44 və 46 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyənləşdirilməsinə imkan verməyən halları nəzərə alaraq, həmin seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab edilməsinə və beləliklə sözügedən seçki dairəsi üzrə Bəcirəvan bələdiyyəsinə seçkilərin etibarsız sayılmasına qərar verib.

Komissiyanın qərarına əsasən 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 30 saylı seçki məntəqəsində də seçicilərin iradəsinin müəyyənləşdirilməsi mümkün olmadığına görə səsvermənin nəticəsi etibarsız hesab edilib.

Media mənsubları tərəfindən operativ şəkildə işıqlandırılan iclasın sonunda, həmçinin cari məsələlərə də baxılıb.

**XQ**

# Naxçıvan MR Ali Məclisi yaz sessiyasının ilk iclası





**Dünən 7-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il yaz sessiyasının ilk plenar iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planı təsdiq edilib, Ali Məclisin Hesablayıcı və İntizam komissiyaları formalaşdırılıb.**

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədovun məlumatından sonra gündəlik təsdiq olunub. Əvvəlcə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il yaz sessiyasının qanunvericilik işləri planı haqqında" qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Daxili Nizamnaməyə əsasən, Ali Məclisin yaz sessiyasının birinci iclasında Hesablayıcı və İntizam komissiyaları yaradılmalıdır. Həmin komissiyalar Ali Məclisin deputatlarından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir. Müzakirə olunan məsələlərlə bağlı hazırlanmış "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında" qərar layihələri də səsə qoyularaq qəbul edilib.

**XQ**

# AZAL Bakı–Həştərxan–Bakı marşrutu üzrə uçuşları dayandırır

**Son zamanlar, o cümlədən bu gün Rusiyanın Həştərxan şəhəri üzərində hava məkanının mütəmadi olaraq bağlanması səbəbindən Azərbaycan Hava Yolları (AZAL) aviaşirkəti uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə Bakı-Həştərxan-Bakı marşrutu üzrə bütün uçuşları qeyri-müəyyən müddətə dayandırır.**

AZAL-dan bildirilib ki, bu istiqamət üzrə bileti olan sərnişinlər ödənişin tam geri qaytarılması və ya biletlərin ödənişsiz dəyişdirilməsi hüququna malikdirlər. Bunun üçün onlar callcenter@azal.az elektron poçt ünvanı vasitəsilə aviaşirkətə müraciət edə bilərlər.

AZAL mövcud vəziyyəti diqqətlə izləməyə davam edir və sərnişinləri dəyişikliklər barədə məlumatlandıracaq.

**XQ**

# Erməni siyasi şüurunun “Paşinyan sindromu”



III MƏQALƏ

**Manipulyasiya həmişə özündə yalanı ehtiva edir.**

**O.Yokoyama**

## Qarabağ manipulyasiyası

II Qarabağ müharibəsindən sonra erməni analitik və ekspert dairələrinin Qarabağla bağlı dərc etdirdikləri məqalələrdə əsas yeri N.Paşinyanın sələflərindən fərqli hansı siyasi-diplomatik mövqedə olması tutur. Əlbəttə, bu zaman onlar erməni siyasi şüurunu ancaq şovinist erməni maraqları prizmasında təhlil etməyə çalışırlar. Onları birləşdirən ümumi məqam ondan ibarətdir ki, N.Paşinyan L.T.Petrosyan, R.Koçaryan və S.Sarkisyandan fərqli olaraq, Qarabağ məsələsində Azərbaycanın qəti qələbəsi faktını nəzərə alaraq hərəkət edir.

Əslində, ümumilikdə, onun Petrosyan, Koçaryan və Sarkisyandan fərqli mövqeyi yoxdur – Qarabağ onun üçün məğlubiyyətdən sonra da şovinist erməni anlamında “Arsax”dır və bütün diplomatik hiyləgərliyi “Arsax xalqının azadlıq və hüquqlarının tam təmin edilməsinə” yönəlmişdir. Ritorikada isə N.Paşinyan Vaşinqtonda, Brüsseldə və Moskvada belə ifadələr işlətməkdə idi – “Ermənistan sülh tərəfdarıdır, Azərbaycanla barış arzusundadır, sərhədlər beynəlxalq hüquqa uyğun müəyyən edilməlidir” və s.

Bu cür ifadələr onun həm Ermənistanda, həm də beynəlxalq miqyasda təşkil edilən görüşlərdə dilindən düşmürdü. Analitik Ayk Xalatyan bununla bağlı N.Paşinyanın nitqlərindən konkret nümunələr gətirir. Məsələn, o, “İrəvanın Qarabağa yeni yanaşmaları” altbaşlığı kontekstində yazır ki, 2022-ci il iyunun 15-də N.Paşinyan erməni parlamentində çıxışı zamanı bəyan etmişdir ki, “Ermənistan regionda “sülh epoxası” açmaq niyyətindədir”. Bunun üçün Azərbaycan və Türkiyə ilə münasibətlər normallaşmalıdır.

Ancaq bunun fonunda N.Paşinyan siyasi şüurunun sindromunu da büruzə verirdi. Məsələn, elə həmin çıxışında deyirdi ki, “Azərbaycanın məqsədi ermənilərin etnik təmizlənməsini həyata keçirməkdən ibarətdir”. Eyni zamanda, “hər şeyi əhatə edən sülh müqaviləsi” məntiqinə keçid edirdi.

Ümumi mənzərənin tam aydın olması üçün, erməni baş nazirin bu fikirlərinin təməlində duran başlıca siyasi-diplomatik mövqeyi ifadə etmək lazımdır. Məhz bu məqamı ermənilər rəsmi İrəvanın Qarabağ məsələsinə “yeni yanaşması” kimi təqdim edirdilər. Bu barədə N.Paşinyan parlamentdəki çıxışında demişdir: “Əvvəllər rəsmi İrəvan “müstəqil Qarabağ” statusundan ermənilərin hüquq və azadlıqlarının təmininə keçid edirdisə, indi əksinədir – öncə Qarabağda ermənilərin hüquq və azadlıqları təmin olunmalıdır və onun əsasında “Arsaxın statusundan danışmaq olar”.

İlk baxışdan yenilik kimi görünən bu fikirlər mahiyyətcə ağır məğlubiyyətdən sonra süni ideoloji və diplomatik manipulyasiyadan başqa bir şey deyildir. Bunu nəinki Azərbaycan diplomatiyası, hətta ermənilərn ənənəvi havadarları belə qəbul etmədilər və rəsmi İrəvana xəbərdarlıq etdilər. Bu barədə N.Paşinyan parlamentdəki çıxışından bir neçə ay əvvəl – 2022-ci ilin aprelində danışmışdı. O etiraf etmişdi ki, “dünya ictimaiyyəti bizə (yəni ermənilərə – F.Q.) aydın deyir ki, dünyada Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü ikitərəfli qaydada tanımayan yeganə ölkəsiniz. Bu, Arsax (erməni anlamında – F.Q.) və Ermənistan üçün böyük təhlükədir”. Buna görə də N.Paşinyan fikirlərinə davam edərək söyləyirdi: “Dünya ictimaiyyəti erməni tərəfinə çatdırır ki, status məsələsində tələblərinizi bir qədər aşağı salın, əks halda biz sizə dəstək verməyəcəyik”.

İndi bu siyasi məntiqin manipulyativ tərəfinə baxaq. İlk baxışdan N.Paşinyan erməni cəmiyyətinə özünü yeni mövqe tərəfdarı kimi təqdim edir və burada müəyyən həqiqət vardır. Lakin son məqsəd baxımından baş aldatmaqdan başqa bir addım atmır. Çünki N.Paşinyan sətiraltı ifadə edir ki, Azərbaycan və Türkiyə xarici təhlükə mənbəyidirlər. Ona görə də bunu neytarllaşdırmaq lazımdır.

Gerçəkdə isə vəziyyət tamamilə fərqlidir. N.Paşinyan həqiqi mənada yenilikçi olsaydı, o, erməni cəmiyyətinə anladardı ki, Bakı haqlıdır, o, tarixi ədaləti beynəlxalq hüquq normalarına uyğun bərpa etmişdir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməkdən başqa bir iş görməmişdir.

Yəni doğru mövqedə olmayan rəsmi İrəvan və erməni cəmiyyətidir ki, buna görə də region üçün təhlükə mənbəyi Ermənistandır. Odur ki, ermənilər ilk növbədə özlərinin siyasi şüurlarında olan natamamlıq kompleksini təmizləməli və birmənalı olaraq, haqlı Azərbaycanla mehriban qonşuluğun şərtlərini müzakirə etməlidirlər.

Bunları etiraf etmək əvəzinə, “yenilikçi” N.Paşinyan sələflərindən bir qədər fərqli müstəvidə və kontekstdə siyasi-diplomatik spekulyasiyalara baş vurur, özündən xarici təhlükə mənbərləri uydurur və bunu da “daxili vəziyyət”lə əlaqələndirməyə çalışır. Guya, erməni cəmiyyətinin mütləq həqiqəti ifadə edən mövqeyi vardır və ondan kənara çıxa bilməz! Yenə də şovinist erməni marağı, lakin bir qədər başqa formulada.

Bütün bunların fonunda N.Paşinyanın Zəngəzur dəhlizi məsələsində tutduğu mövqe də ayrıca bir siyasi şüur sindromudur. Onun dərk edilməsi “3+3” platformasına rəsmi İrəvanın münasibətində özünü göstərən spekulyasiyaların arxasında dayanan məntiqi süniliyin aydınlaşması ilə bağlıdır.

## Zəngəzur – ermənilərin “çətin problemi”

Deyə bilərik ki, II Qarabağ müharibəsindən sonra erməni diplomatiyasının “ilişib qaldığı” problemlərdən biri Zəngəzur dəhlizidir. Hələlik bu istiqamətdə də N.Paşinyanın “yenilikçi siyasi məntiqi” keçərli ola bilmir. Bir neçə mənbədən aldıqları məsləhətlərlə erməni siyasiləri Zəngəzura “alternativ kimi” təklif irəli sürmüşlər. Bunun mənası belədir ki, Azərbaycan və Türkiyənin təsiri olmadan Cənubi Qafqazda “real əməkdaşlıq platforması” yaratmaq olar ki, onun sayəsində “dünya kəsişər”. Bu qondarma və antisivil təklifin əsas qüsurunu Prezident İlham Əliyev sadə terminlərlə dəqiq ifadə etmişdir. Dövlət başçımız demişdir ki, əgər söhbət regional əməkdaşlıqdan gedirsə, orada Azərbaycanı necə nəzərə almamaq olar? Çünki bu, bəri başdan region dövlətlərindən birini kənarda qoymağa cəhddir. Həmin səbəbdən də N.Paşinyan və onun havadarları özlərinə gülürlər.

Digər tərəfdən, Azərbaycanın təklif etdiyi “3+3” formulu prizmasında N.Paşinyanın “layihəsi” olduqca gülünc və süni görünür. Məsələ ondan ibarətdir ki, Zəngəzur dəhlizi “3+3” kontekstində ciddi real faktor kimi ümumi geosiyasi mənzərəyə yerləşir. Çünki Zəngəzur regionun bütün dövlətlərinin (Türkiyə, Rusiya, İran, Azərbaycan, Gürcüstan və Ermənistan) ortaq razılığı ilə işə salınır. “3+3” platformasının mahiyyəti bunu tələb edir. Burada regiona daxil olan heç bir dövlət kənarda qalmır, təcrid olunmur. Əksinə, “qazan-qazan” prinsipi üzrə hər kəs fayda götürür.

N.Paşinyanın qondarma “dünyanın kəsişməsi” isə bəri başdan uzaq Hindistan kimi dövlətləri nəzərə alır, sonra Qara dənizə uzanır və ortada olan Rusiya, Azərbaycan və Türkiyəyə aidiyyatı olmur. Bu, gerçəkdən köhnə konfrontasiya mahiyyətli geosiyasətin absurd və primitiv təzahürlərindən biridir. Bizim anlamımızda həm də erməni siyasi şüurunda “Paşinyan sindromu”nun konkret təzahürüdür!

Bununla həmin spekulyativ və qeyri-real məzmununa görə, erməni diplomatiyası Zəngəzur məsələsini özü üçün “çətin problemə” çevirmişdir. Sadə, dürüst və sağlam yanaşma əsasında onu asan həll etmək əvəzinə, müxtəlif qondarma yanaşmalarla həm öz şüurlarını ləkələyirlər, həm də regional geosiyasi dinamikada risklərin yaranmasına səbəb olurlar.

## Regional risklərin artması

Yekunda erməni siyasi şüurunun sindromlarının regional miqyasa mümkün təsirləri üzərində dayanmaq lazım gəlir. Çünki bu tendensiya bütövlükdə regional geosiyasətin yalanlar, spekulyasiyalar və manipulyasiyalar üzərində qurulmasına imkan yarada bilər ki, onun acı nəticələri bütövlükdə regionun xalqlarına mənfi təsir edər.

Bir tərəfdən Azərbaycanın əməkdaşlıq və təhlükəsizliyə xidmət edən addımları regionda sağlam geosiyasi mühit yaratmağa xidmət edirsə, digər tərəfdən Ermənistanın manipulyativ cəhdləri bölgəni köhnə destruktiv müstəvidə saxlamağa yönəlmişdir. Bu baxımdan Qərbin Ermənistana hərbi kontingent yeritmək planı son dərəcə təhlükəli bir gedişata işarədir. Əgər proseslər bu istiqamətdə inkişaf edərsə, Cənubi Qafqaz geridönməz neqativ geosiyasi dinamikanın şahidi olacaq.

Bunlar bir daha onu təsdiq edir ki, siyasi şüurlardakı manipulyasiyalar praktikada vəziyyəti mürəkkəbləşdirir və ziddiyyətləri kəskinləşdirir. Deməli, regionda yerləşən ölkələrə rəhbərlik edənlərin siyasi şüur məsələsi reallıqda Cənubi Qafqaz üçün əhəmiyyətlidir. Yəni bu məsələ yalnız konkret ölkə və cəmiyyətin sərhədləri ilə məhdudlaşmır. Əgər vurğulanan məqamı nəzərə alsaq, indi erməni siyasi şüurunda özünü göstərən sindromların region üçün təhdidlər yaratdığını qəbul etməliyik.

Bununla yanaşı, siyasi manipulyasiyaların bəzi psixoloji əlamətlərindən də danışmaq olar. Sağlam mövqeyi olan siyasətçi öz daxili aləmini dəyişməklə dünyanı yeniləşdirməyə çalışır. Bu, manipulyasiya deyildir. Siyasi manipulyator ətraf aləmi özündən asılı vəziyyətə salmağa çalışır. Yəni nə özü yeniləşir, nə də ətraf aləmdəki yenilikləri qəbul edir. Bunun əvəzinə isə dünyanı özünün eqoist maraqlarına tabe etdirməyə çalışır. Bu da sonu görünməyən absurd siyasi fəaliyyət seçimidir.

Siyasi şüurun sindromları aspektində başqa bir dərin psixoloji məqam da mövcuddur. Dünyanı bizim daxili aləmimizi əks etdirən ayna kimi təsəvvür etsək, onda biz o aynada həm də əlaqələrimizi, zəif və güclü keyfiyyətlərimizi görməyi bacarmalıyıq. Bunu edə bilməyən insan hər yerə və hər kəsə özünün eqoizmindən qaynaqlanan problemlərini proyeksiya edəcək. Siyasi şüurun sindromu kimi bu xüsusiyyət ən təhlükəlisidir. Nikol Paşinyan indi məhz bu paradoksun duyğusal və məntiqi ağrılarını yaşayır! Bu vəziyyətdən çıxış yolu yoxdur.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “Böyük manipulyator”

**Mark ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

### Hakimiyyətdə olan homoseksuallar Hollanddan narazıdırlar

Bütün siyasi partiyalar arasında müzakirə olunan, ancaq heç kimin hələ ki, real bir çıxış yolu təklif etmədiyi bu məsələdən Makron prezident seçkiləri zamanı dördəlli yapışacaq. Ona görə də respublikanın homoseksual şəbəkələri bunun müqabilində gənc namizədin zəif damarını – onun heç bir partiyanın üzvü olmaması problemini – hamıya unutdurmağa çalışacaqlar. “Hollandın yanında olanda, o, hər şeyi dərindən təhlil etdi, hər şeyə diqqətlə nəzər yetirdi və məqam düşən kimi Hollanddan narazı olanları ətrafında səfərbər etdi”, – deyə Makronun köhnə dostlarından biri onun strategiyasını təhlil edir. 2017-ci ilin fevral ayında Lion şəhərindəki seçicilər qarşısında, Makron Şarl de Qoldan tutmuş Fransua Mitterana qədər bütün prezidentlərə istinad edərək barokko stilində uğurlu bir çıxış edir. Bir neçə gündən sonra isə o, homoseksualların jurnalı “Tetu”ya müsahibə verir. Ancaq bununla da kifayətlənmir, bir həftə sonra aylıq “Causeur” jurnalının baş redaktoru Elizabet Leviyə, eləcə də “Le Nouvel Observateur” jurnalının mədəniyyət şöbəsinin müdiri Jerom Qarcinə verdiyi müsahibədə dönə-dönə vurğulayır ki, bəs Hollandın dövründə LMPT (eynicinsli cütlüklərin nikahına və onların övlad götürməsinə icazə verən qanuna qarşı çıxan ən böyük nümayişlərin və aksiyaların arxasında duran kollektiv) “təhqir olunub alçaldı”.

İndi Makron xoşbəxtdir: sağçı konservatorların hakimiyyətə yenidən gəlməsindən qorxuya düşən homoseksuallar nə sağçıların namizədi Fransua Fiyyona, nə mütərəqqi katolik və ekstremist solçuların namizədi Jan-Lük Melanşona, nə də ekstremist sağçıların qarşısında qırmızı bayraq yellədən frank-masonlara etibar edirlər... Ona görə də belə bir şəraitdə təbii ki, bütün homoseksuallar nə sağçı konservator, nə mütərəqqi katolik, nə ekstremist solçu, nə də frank-mason olan Emmanuel Makronun seçki kampaniyasına üz tuturlar. Makrona da elə bu lazımdır. Düzdür, homoseksualları Makronun başqa ideyaları o qədər də maraqlandırmır... amma nahaq, çünki namizəd bütün günü ağız dolusu, ölkədə yeni sosial model yaratmaqdan dəm vurur.

Fransanın media, eləcə də iqtisadiyyat dünyasındakı homoseksuallar çevrəsində, demək olar ki, hamı Makronu dəstəkləyir. Məsələn, Sosialist Partiyasının üzvü, bir zaman homoseksualların “Tetu” jurnalının səhmdarı olan iş adamı Jan-Jak Oqier də Emmanuel Makrona qoşulur. Bu adam bir vaxtlar dostu Fransua Hollandın eynicinsli insanların bir-biri ilə evlənmə azadlığından öz siyasi məqsədləri üçün istifadə etməsini həzm edə bilməmişdi. Bundan başqa, o, Fransua Hollandın seçki kampaniyası zamanı lezbiyanlara verdiyi sözün üstündə durmamasını da ona bağışlamamışdı. (O vaxt – prezidentliyə namizəd olanda – Holland lezbiyənlərin xoşuna gəlmək üçün onlara söz vermişdi ki, əgər prezident seçilsə, bir-biri ilə evlənən qadınlara süni mayalanma yolu ilə hamilə qalmağa icazə verəcək.)

Bu kontekstdə Makron, həmçinin vaxtilə Siyasi Elmlər İnstitutunda onun müəllimi olmuş, ona ENA-ya (Milli Administrasiya Məktəbi) girməsinə kömək edən, 17 000 işçisi olan SOS qrupunun prezidenti və baş direktoru Jan-Mark Borellodan da dəstək alır. Əvvəllər məktəbdə tərbiyəçi olan bu keçmiş pedaqoq, 1980-ci illərdə narkomaniya və HİV-QİÇS-lə (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) mübarizə aparmaqdan ötəri SOS Drogue International assosiasiyası yaradır. Bir müddət homoseksualların və lezbiyanların “La Palace” adlanan məşhur gecə klubunu direktoru kimi fəaliyyət göstərəndən sonra Borello, 1998-ci ildə əvvəl SOS qrupunun sadə bir işçisi, sonra da həmin qrupun prezidenti olur. Borello təpədən dırnağa kimi sosialistdir. Marsel şəhərinin keçmiş meri Qaston Defferin kabinetinin üzvü olub, özü də Sosial İşlər naziri Jeorjia Düfuaksın yaxın adamıdır. "Hərəkətdə!" hərəkatı siyasi partiyaya çevriləndən sonra SOS qrupunun iki keçmiş işçisi Orelien Taşe və Pakom Rupan bu partiyanın üzvü keçir və bir müddətdən sonra da həmin partiyadan deputat seçilirlər.

### Parisin köhnə meri ilə təzə meri arasında müharibə

Brijit Makronun sağçılar partiyasından olan və heç vaxt homoseksual olduqlarını gizlətməyən “dostları” Mark-Oliviye Fojiel, Filip Besson və hətta Paskal Huzelot mediada açıq şəkildə onun ərini dəstəkləməyə başlayırlar. Bu adamlar 2012-ci ildə Sarkoziyə yox, Fransua Hollanda səs vermişdilər, çünki Sarkozi 2007-ci ildə prezidentliyə namizəd olanda, homoseksuallara vəd etdiyi “nikahsız ailə” ideyasını prezident olandan sonra həyata keçirməmişdi... Mark-Oliviye Fojiel ilə Filip Besson Parisin keçmiş meri, homoseksual Bertran Delanoyenin çevrəsindəndirlər. Bu sonuncu, Parisin yeni meri Anna Hidalqonun müavini Brüno Jüyyard ilə də yaxın dostdur. Keçən sentyabrda merin bu müavini Anna Hidalqonun bacarıqsızlığına və işinin öhdəsindən lazımi qədər gələ bilməməyinə görə ərizəsini yazıb işdən çıxmışdı. 2017-ci ilin mayında prezident ona xarici işlər naziri olmağı təklif etmişdi. Bertran Delanoye (Parisdə ona Delanoye xala ləqəbi qoyublar) bu təklifdən imtina etsə də, əvvəllər meriyada onun rəhbərliyi altında işləyən, indi isə Yelisey sarayında Brijit Makronun kabinetində direktor və katib kimi fəaliyyət göstərən Pier-Oliviye Kosta və Tristan Bromet vasitəsilə mesajlarını istədiyi vaxt prezident sarayına ötürə bilir. LREM (Respublika “Hərəkətdə!”) partiyasının Paris merinin kreslosuna göz dikdiyini çox yaxşı hiss edən Delanoye, dostları kimi Anna Hidalqonu tənqid etmək fürsətini heç vaxt əldən vermir.

Ümumiyyətlə, hakimiyyətdə olan yüksək aylıq gəlirli bu varlı homoseksualların çoxu həm siyasi, həm də iqtisadi baxımdan çox liberaldırlar. 2007-ci ildə onlardan bəziləri – o vaxta qədər Sosialist Partiyasına simpatiya göstərənlər – La Diaqonal siyasi klubunda birləşdilər. Onların məqsədi “solçu Sarkozistləri” bir yerə yığıb onların köməyi ilə həm iqtisadi, həm də ictimai liberalizmi genişləndirmək idi. Prezident seçkiləri zamanı onlar namizəd Sarkozi ilə Parisin mərkəzindəki “Bains Douches” diskotekasında görüş təyin etdilər. İndi – 10 il sonra – bu yüksək səviyyəli məmurlar, hüquqşünaslar, iş adamları, çıxışlarında biznesə xüsusi yer verən Makrona yaxşı gözlə baxırlar. 2018-ci ilin payızında Londonda yaşayan, Fransanın yeni texnologiya sektorunda internetdə gənc innovativ şirkətləri (French Tech) Britaniyanın paytaxtında təmsil edən Alba Serviant, Mark-Oliviye Fojiel ilə birlikdə homoseksualların Fransada çıxan Tetu jurnalını İngiltərədə də çıxarmaq fikrinə düşür. Onlara bu jurnalın 2013-cü ildən 2015-ci ilə qədər səhmdarı olmuş Jan-Jak Oqier kömək edir. Makronun 8 sentyabr 2016-cı ildə Londona səfəri zamanı, Alba Serviant sağçıların namizədi Fransua Fiyyonun kampaniyasına pul tapmaq üçün ingilis, eləcə də Londonda yaşayan varlı homoseksual fransızlar üçün səhər yeməyi təşkil etmişdi...

“Respublikaçılar arasında Sens Commun (Sosial elmlərdə tədris olunan bir anlayışdır. Bu konsepsiya sosial normaları və dəyərləri, eləcə də simvolik assosiasiyaları bir yerdə birləşdirən bir orqanizmdir.) prinsipinə sadiq qalan GayLib assosiasiyasının üzvləri (GayLib – 2001-ci ildə Fransada yaranan, lezbiyan, gey, biseksual və transların hüquqlarını müdafiə edən assosiasiya) Makronun ətrafına yığışdılar”, – deyə sağçılar partiyasının keçmiş fəallarından biri qeyd edir.




Dünyanın işinə bax ki, Makron nə Amerikanın prezidenti Obama kimidir, nə də Kanadanın Baş naziri Trüdo kimi. Mətbuatdakı imicinə baxmayaraq, o, konservatorluğa və bonapartistliyə daha çox meyillidir. Hollandın hakimiyyəti dövründə, Yelisey sarayının baş katibinin müavini olanda, eyni cinsli insanların evlənməsi haqqında müzakirələrin qızğın çağında, Makron prezident aparatında olmağına baxmayaraq, prezidentin (Holland) beş illik müddətinin bu ən böyük islahatını o qədər də dəstəkləməmişdi. Onun keçmiş həmkarlarından birinin dediyinə görə, Makron eyni cinsli insanların evlənməyinin əleyhinə idi. Bundan başqa, prezident Fransua Hollandın yaxın əməkdaşı belə hesab edirdi ki, ölkədəki qlobal iqtisadi problemləri bir yana qoyub homosek sualların evlənib-evlənməməyi ilə məşğul olmaq tamamilə absurd bir şeydir. O ki qaldı lezbiyanların süni yolla ana olmaq məsələsinə (PMA), prezident hələ də əvvəlki kimi nala-mıxa vurur, bütün partiyaların, assosiasiyaların fikrini öyrənmək istəyir ki, sonra bir qərar çıxarsın. O vaxt prezidentliyə namizədlik kampaniyasında olduğu kimi, o, konservator katoliklərə hələ də göz-qaş edir... Həmişəki kimi prezident Makronun, həqiqətən, nə istədiyini, hansı mənsəbə qulluq etdiyini başa düşmək mümkün deyil...

### Frank-masonlara tərəf baxış

Prezidentliyə namizədlik kampaniyasını hazırlayanda, Makron frank-masonları da unutmadı. 2016-cı ilin iyun ayında o, Parisin 9-cu rayonunda, Cadet küçəsində yerləşən ən məşhur mason lojalarından biri olan Grand Orient de France lojasının Artur-Groussier məbədində təşkil olunan konfransda çıxış edir. Bu konfransdakı masonların çoxu Fransanın siyasi həyatında mühüm rol oynayan sosialistlərdir. Makron bu auditoriyada çox sevdiyi bir mövzu haqqında məruzə edir: “Qloballaşdırma prinsipi tərəqqinin sinonimi ola bilərmi?”. Onun bu çıxışı masonlar tərəfindən gurultulu alqışlarla qarşılanır. Sonrakı aylarda namizəd iki başqa mason lojasına – o cümlədən üzləri arasında xeyli sanballı siyasi şəxsiyyətlər olan Demain lojuna da baş çəkir.

**(ardı var)**

# İqtisadi şaxələndirmə xarici əməkdaşlığı da genişləndirib

(əvvəli 1-ci səhifədə)

2024-cü ildə Rusiya Federasiyasına 1,2 milyard dollar, Türkiyəyə 542,3 milyon dollar, Gürcüstana 272,4 milyon dollar, İsveçrəyə 220,4 milyon dollar, ABŞ-a isə 134,7 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.Keçən ilin dekabr ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (27,1 milyon dollar) 1-ci, qızıl (25,2 milyon dollar) 2-ci, tomat (pomidor) (20,1 milyon dollar) 3-cü olub.

Həmin vaxt qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (94,2 milyon dollar) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (35,2 milyon dollar) ikinci, İsveçrə (26,8 milyon dollar) üçüncü olub. 2024-cü il üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "MKT İstehsalat Kommersiya", "Silk Vey Vest Avia-şirkəti", "ASG Business Aviation", "Baku Steel Company" şirkətləri, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Tabaterra" QSC, "Khan-El" MMC, "Atena" Məhdud Məsuliyyətli Cəmiyyəti və Süleymanova Göhər Süleyman qızı təmsil olunublar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında dövlətə məxsus olan şirkətlərin siyahısına isə Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər – "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ASC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Suraxanı Maşınqayırma zavodu" ASC, "Azəripək" MMC təmsil olunublar.

2024-cü ildə Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 50 ölkəsinə 18,5 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 73 faizini təşkil edib. 2024-cü ilin dekabr ayında isə "Azərkosmos"un dünyanın 40 ölkəsinə 1,6 milyon dollar dəyərində xidməti qeydə alınıb.







Hesabat ili ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 6 milyon dollar ilə Birləşmiş Krallıq, 3,8 milyon dollar ilə Lüksemburq, 855,5 min dollar ilə BƏƏ, 683,8 min dollar ilə Pakistan, 654,5 min dollar ilə Türkiyə qərarlaşıb.

İxrac əməliyyatlatında diqqətçəkən bu uğurlu göstəriciləri bir sıra amillər şərtləndirir. Məsələn, son illər respublikada ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Azərbaycanda Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Bütün bunlarla bərabər, respublikamızda prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti aparılır, makroiqtisadi və büdcə dayanıqlığının reallaşdırılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsinə xüsusi əhəmiyyət verilir. Məhz bütün bunların nəticəsidir ki, hazırda qeyri-neft-qaz sənayesində artım neft–qaz sektorundakı artımı üstələyir.

Mövcud sahədə əlavə dəyərin 7 faizə yaxın artması, ümumi halda isə qeyri–neft sektorunda 3 faizdən çox artım müşahidə olunması, həmçinin 2003-cü ildən başlayaraq, ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərcinin, təqribən, 4 dəfə, ixracın 15,6 dəfə yüksəlməsi, iqtisadiyyatın orta artım tempinin dünya üzrə orta səviyyədən 4 faiz çox olması bunun parlaq ifadəsidir.

Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun getdikcə güclənməsi də xarici ticarət dövriyyəsinin əhatə dairəsinin böyüməsinə təkan verib. Məhz bunun nəticəsidir ki, ölkəmizin xarici ticarət əlaqələrinin coğrafiyası ildən-ilə genişlənib.

Bütün bunlar hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşdığını deməyə əsas verir. Bu istiqamətlər isə idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılmasına xidmət edir. Özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı" səviyyəsinin minimuma endirilməsi də bu sıraya daxildir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

# Azərbaycan–BƏƏ əməkdaşlığının hədəfləri

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsində Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında ticarət, investisiya, energetika, kənd təsərrüfatı və maliyyə sahələrində potensial işbirliyi imkanlarının dəyərləndirildiyi barədə paylaşıb edib.**



Açıqlamada deyilir: "BƏƏ-nin investisiya naziri, Əbu-Dabi İnkişaf Holdinq Şirkətinin idarəedici və baş icraçı direktoru Məhəmməd Həsən Əl Suveydi ilə görüşməkdən məmnun olduq. Ölkələrimizin iqtisadi tərəfdaşlığını gücləndirmək istiqamətində ticarət, investisiya, energetika, kənd təsərrüfatı və maliyyə sahələrində potensial işbirliyi imkanlarını dəyərləndirdik. Birgə İnvestisiya Fondunun fəaliyyəti və prioritet sahələrə sərmayə qoyuluşu barədə müzakirələr apardıq".

Qeyd edək ki, ötən il Azərbaycanla BƏƏ arasında ticarət əməliyyatlarının həcmi 96,8 milyon ABŞ dolları (2023-cü ildəki göstərici ilə müqayisədə 36,4 milyon ABŞ dolları və ya 27,3 faiz az) təşkil edib.

2024-cü il ərzində Azərbaycan xarici ölkələrlə (180 ölkə) 47,6 milyard ABŞ dolları dəyərində (2023-cü ilə nisbətən 3,6 milyard ABŞ dolları və ya 7faiz az) ticarət əməliyyatı aparıb. Xarici ticarət dövriyyəsinin 26,5 milyard ABŞ dolları ixracın, 2,6 milyard ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 7,3 milyard ABŞ dolları və ya 21,7 faiz azalıb, idxal isə 3,8 milyard ABŞ dolları və ya 21,8 faiz artıb. Nəticə etibarilə xarici ticarətdə 5,5 milyard ABŞ dolları (illik müqayisədə 3 dəfə az) həcmində müsbət saldo yaranıb.

# Ələt aeroportu – yeni hava körpüsü

**Ələt Azad İqtisadi zonasında inşa ediləcək hava limanı təkcə yükdaşıma kimi deyil, həm də sərnişindaşıma və bisnes aviasiya kimi fəaliyyət göstərəcək. İqtisadi zonanın İdarə Heyətinin sədri Valeh Ələsgərov bildirib ki, 750 hektar ərazini əhatə edəcək hava limanının tikilməsində məqsəd, həm də Azərbaycanı aviasiya habına çevirməkdir.**



Xatırladaq ki, Ələt Azad İqtisadi Zonasında yeni yük hava limanının tikintisi ilə bağlı layihə ötən ilin noyabrında Bakıda keçirilmiş COP29 çərçivəsində "Silk Way Group" Şirkətlər Qrupu tərəfindən elan edilib. Yeni hava limanı 18 təyyarə dayanacağı, 4 metrlik uçuş-enmə zolağı, taksi yolları, hava hərəkəti idarəetmə mərkəzi, yanacaq və yanğınsöndürmə xidmətləri, eləcə də digər əlaqəli obyektləri əhatə edəcək. Eyni zamanda, hava limanı layihəsində fərdi ekspeditor anbarlarının, tez xarab olan yüklər üçün terminalların və müasir ofis binalarının inşası nəzərdə tutulur.

Layihənin əsas texnologiya tərəfdaşı Niderlandın "TKH Airport Solutions" şirkətidir. Yük hava limanının tikintisi 2026-cı ildə başa çatacaq. İlkin mərhələdə yeni aeroportun illik yükaşırma gücünün ilkin mərhələdə 500 min ton, daha sonra isə 1,5 milyon tona qədər artırılması planlaşdırılır. Hava limanı, ilk növbədə, sözügedən iqtisadi zonada fəaliyyət göstərən müəssisələrin yüklərinin təyyarə ilə daşınmasını təmin edəcək. Bütövlükdə isə, buradakı sahibkarlıq subyektləri Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, geniş dəmir yolu və avtomobil yolları qovşaqları ilə yanaşı, yeni hava limanına da çıxış əldə edəcəklər.

Yeri gəlmişkən, bir il 7 ay əvvəl birinci mərhələsinin açılışı olan Ələt Azad İqtisadi Zonasında artıq bir neçə şirkət də inşaat işlərinə başlayıb. Cari ildə burada iki böyük müəssisə fəaliyyətə başlayacaq. Bu barədə məlumat verən V. Ələsgərov qeyd edib ki, iqtisadi zonada 200 min ton alüminium istehsal edən müəssisə də tikiləcək. Burada 1300–1400 nəfər işlə təmin olunacaq. İqtisadi zonada fəaliyyətə başlayacaq ikinci böyük müəssisədə isə sənayedə tələb olunan məhsul istehsal ediləcək. Yeni müəssisədə 800 nəfərdən çox iş yeri açılacaq.

# "Murovdağ" Magellan boğazını fəth etdi



**"Xəzər Dəniz Gəmiçiliyi" QSC-dən redaksiyamıza verilən məlumata əsasən, "Handysize" tipli "Murovdağ" quru yük gəmisi Magellan boğazını keçən Azərbaycanın ilk yük gəmisi olub. Bu hadisə ilə ölkəmizin dənizçilik tarixində yeni bir səhifə açılıb.**

Çilinin Tokopilla limanından 33 min ton potassium nitratı ilə yola çıxan "Handysize" tipli gəmi Latın Amerikasının cənub sahili boyunca hərəkət edərək, dünyanın ən çətin və strateji əhəmiyyətli dəniz yollarından biri sayılan Magellan boğazından keçib. Hazırda Atlantik okeanına doğru üzən gəminin İspaniyanın Kadiz limanında yükünü boşaltması planlaşdırılır.

Magellan boğazı Cənubi Amerikanın cənubunda, Çili ərazisində yerləşir və Atlantik okeanı ilə Sakit okeanı birləşdirən mühüm dəniz keçididir. Boğaz güclü küləkləri, dəyişkən hava şəraiti və mürəkkəb su axınları ilə tanınır.

"Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin beynəlxalq sularda istismara verdiyi ikinci "Handysize" tipli məhdudiyyətsiz üzmə imkanlarına malik gəmisi olan "Murovdağ" bu tarixi keçidlə Azərbaycanın dənizçilik sahəsindəki mövqeyini daha da möhkəmləndirir və qlobal yükdaşımalarda iştirakını genişləndirir.

# "Astara" elektrik stansiyası önəmini qoruyur

**2006-cı ilin fevral ayında istismara verilmiş "Astara" modul tipli elektrik stansiyası ahəngdar rejimdə fəaliyyət göstərir. 2024-cü ildə stansiyada 200 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunub.**



Bütövlükdə isə, ötən 19 il ərzində stansiyada 5,1 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib. Bu barədə Energetika Nazirliyindən məlumat verilib. Xatırladaq ki, Astara rayonunun Ərcivan kəndində inşa olunan modul tipli stansiya Azərbaycan energetikləri ilə Finlandiyanın "Vartsila" şirkətinin 2005-2007-ci illər ərzində birlikdə tikib istifadəyə verdikləri 5 enerji istehsalı müəssisələrindən birincisidir. Stansiyanın ümumi gücü 87 meqavat təşkil edir. Burada hər birinin gücü 8,7 meqavat olan 10 ədəd qaz porşen aqreqatı quraşdırılıb.

# Yapon şirkəti ilə enerji səmərəliyi müzakirəsi

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Yaponiyanın "Yokogawa Europe B.V." şirkəti ("Yokogawa Electric Corporation" şirkətinin törəmə müəssisəsi) arasında enerji səmərəliliyi, rəqəmsallaşma və dekarbonizasiya mövzularında müzakirələr aparılıb. Bu barədə SOCAR-ın sosial şəbəkə hesablarında məlumat verilib.**

Qeyd olunub ki, SOCAR və "Yokogawa Europe B.V." arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində SOCAR-ın strateji rəhbərləri və aparıcı mütəxəssislərinin iştirakı ilə icraçı seminar təşkil olunub. "Seminarda neft emalı sahəsində dəyər zəncirinin optimallaşdırılması, modernizasiyası və genişləndirilməsi layihələri, enerji səmərəliliyi, rəqəmsallaşma və dekarbonizasiya mövzularında geniş müzakirələr və qarşılıqlı fikir mübadiləsi aparılıb", – deyə məlumatda bildirilib.




Xatırladaq ki, SOCAR və "Yokogawa Electric" şirkəti arasında Anlaşma Memorandumu 2024-cü ilin dekabr ayında imzalanıb. Şirkətlərarası əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan sənədə əsasən, tərəflər istehsalın optimallaşdırılması, enerji səmərəliliyinin artırılması, dekarbonizasiya fəaliyyəti, emissiyaların azaldılması, habelə rəqəmsallaşdırma və digər istiqamətlərdə əməkdaşlıq edəcək, birgə layihələrin icrası imkanlarını araşdıracaqlar.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# USAID-in öldürücü bumeranq zərbəsi

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbər heyətində təmsil olunan 60 nəfərə yaxın şəxs işdən kənarlaşdırılıb. Yüzlərlə mütəxəssis sərəncama göndərilib. Agentliyin ofisində audit yoxlamaları başlanıb. Preizdent Donald Tramp tərəfindən Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri təyin edilmiş İlon Mask ilk açıqlamalarında bunu maliyyə yoxlamaları ilə əlaqələndirib. Bunu, həmçinin DOGE-nin dövlət büdcəsini izafi xərclərdən qorumaq üçün verdiyi çoxsaylı təkliflərdən biri kimi təqdim edib.**



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*



Amma hadisələrin sonrakı gedişatı fərqli nəticələr doğurub. Son anda baş verənlər deməyə əsas yaradır ki, USAID-in fəaliyyətindəki nöqsanlar təkcə maliyyə maxinasiyaları ilə bağlı deyil. İctimaiyyətdən gizli saxlanılan digər amillər də vardır ki, bu səbəbdən qurumun fəaliyyətinin dayandırılmasına qərar verilib. Belə ki, agentliyin Vaşinqtonda "Ronald Reyqan binası"nda yerləşən baş qərargahı bağlanıb. Ofisin önündəki lövhə götürülüb, agentliyə məxsus sayt bloklanıb. Sayta giriş Dövlət Departamentinin internet səhifəsinə yönləndirilib. Agentliyin məxfi məlumatlarının qorunduğu bütün yaddaş kartları və kompüter sistemləri nəzarətə götürülüb. İlon Mask son açıqlamalarında USAID-in ləğvi prosesinə başlanıldığını bəyan edib.

ABŞ Beynəlxalq İnkişaf Agentliyi təqribən 50 milyard dollar məbləğində büdcəyə malik olmaqla, dünyanın ən böyük yardım təşkilatıdır. Qurumun məramnaməsində qeyd edilir ki, o, xarici ölkələrdə "mülki-humanitar yardımların çatdırılmasını, həmçinin demokratik inkişafı hədəfləyən proqramların icrasını" reallaşdıran təsisatdır. ABŞ Konqresi tərəfindən "Xarici Yardım Aktı" proqramı çərçivəsində təsdiqlənən layihələr USAID vasitəsilə icra edilir.

Amma təcrübə göstərir ki, USAID fəaliyyət göstərdiyi ölkələrdə mülki-humanitar kampaniyalardan, demokratik inkişafı ehtiva edən proqramlardan daha çox, bu ölkələrdə siyasi proseslərə açıq müdaxilə etməsi, çaxnaşmalar yaratması ilə məşhurdur. O, ABŞ-ın hədəfində olan ölkələrdə ictimai rəyi idarə etmək, "humanitar yardımlar" adı altında cəmiyyətlərin rəğbətini qazanmaq üçün yaradılmış bir cəza mexanizmidir. ABŞ Dövlət Departamentinin və Mərkəzi Kəşfiyyat İdarəsinin kənar cəmiyyətlərdə tapşırıqlarının icraçısı rolunda çıxış edən bir alətdir. Zərurət yarananda "humanitar yardım" proqramlarından kənara çıxır, ayrı-ayrı ölkələrdə siyasi kataklizmlər törədir, hakimiyyət çevrilişlərinə dəstək verir, xaos və dağıntılar törədir. Müasir terminologiya ilə ifadə etsək, USAID ABŞ-ın "yumşaq güc" texnologiyasıdır, onun ekspansiya siyasətini icra edən əsas təsisatdır. Təşkilatın saytında da qeyd edilir ki, o, "Dövlət Departamenti və Mərkəzi Kəşfiyyat İdarəsi ilə koordinasiya edilmiş formada fəaliyyət göstərir".

Maraqlıdır, nə baş verib ki, ABŞ Prezidenti bu cür mötəbər bir qurumun bağlanmasında israrlıdır? Dünya mediası bu suala cavab axtarır. Versiyalar çoxdur. Ötəri ehtimallar üzərində qurulanlar da az deyil. Amma sırada rasional görünənlər də var. Məsələn, qeyd olunur ki, USAID rəhbərliyi bəzi hallarda sayıqlığını itirib, xarici hədəfləri unudaraq, daxili siyasətə qarışır. Demokratların Respublikaçılar üzərində qələbəsi üçün çalışıb. Konkret desək, Donald Trampın seçkilərdə məğlub edilməsi üçün vəsait xərcləyib. Belə ki, Nyu-Yorkun meri və Prezident D.Trampın kibertəhlükəsizlik üzrə keçmiş müşaviri R.Culianiyə qarşı kompromatın tapılması üçün OCCRP-yə 20 mln dollar qonorar verib.

USAID-nin yanlışları təkcə daxili siyasətə baş qoşub kompromat savaşına girişməsi ilə bitmir. O, xarici siyasət kursunda da ciddi qüsurlara yol verib. Xarici ölkələrdə "humanitar yardım" proqramları icra etmək, bu yolla həmin cəmiyyətlərdə ABŞ-a rəğbət formalaşdırmaq əvəzinə, özünün kobud, yanlış siyasəti və davranışları ilə bəzən dost ölkələri də narazı salıb, rəqibə çevirib. Məsələn, 2023-cü ilin oktyabr ayında Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti USAID-i ifşa edən rəsmi açıqlama yaydı. Onu Gürcüstanda inqilabi proseslərin planlaşdırılmasında ittiham etdi. Uzun illər ərzində Qərbyönümlü siyasət yürüdən Gürcüstanın ABŞ-dan incik düşüb üz döndərməsi, əslində, bu nöqtədən başladı. USAID-in yarıtmaz siyasəti Gürcüstanı ABŞ-ın dostluğundan çıxardı, onun rəqibinə çevirdi. Amma, bu, USAID-in adının qarışdığı ilk və yeganə qalmaqal deyil. Afrika, Asiya, Yaxın Şərq, Latın Amerikası və Şərqi Avropa dövlətlərində son 30 il müddətində gerçəkləşdirilən inqilabi proseslərdə, xaosun, qarşıdurmaların artmasında bu qurumun iştirakı görünür.

USAID Azərbaycanda da oxşar problemlər yaratdı. Agentliyin rəhbəri Samanta Pouer ABŞ-ın Cənubi Qafqazdakı maraqlarını özünün şəxsi maraqlarına satdı. O, erməni əsilli milyarder, yaxın dostu Ruben Vardanyanı müdafiə etmək naminə Azərbaycanı incik saldı, münasibətləri soyutdu. USAID-in maliyyələşdirdiyi KİV və QHT-lər 2023-cü ilin sentyabr tədbirlərindən sonra "Azərbaycanı etnik təmizləmədə", "Ermənistan ərazisini işğal etməyə hazırlaşmaqda" ittiham edən məlumatlar yaydılar. Təsirlərində olan KİV və QHT-lər vasitəsilə ölkəmizə qarşı beynəlxalq səviyyədə kampaniyalar keçirdi, haqsız hücumlar təşkil etdi.

Bu kontekstdə USAID-in imkanları hədsiz dərəcədə genişdir. Təkcə 2023–2024-cü illərdə "müxtəlif ölkələrdə vətəndaş cəmiyyəti quruculuğuna dəstək vermək" adı altında agentlik 9 milyard dollardan çox vəsait sərf edib. Fəaliyyətini "Vətəndaş cəmiyyətlərinin inkişafına töhfə vermək" adı altında pərdələyib. Reallıqda isə siyasi proseslərə müdaxilə edib, cəmiyyətlərdə qarşıdurma yaratmağa çalışıb. Maliyyələşdirdiyi KİV və QHT vasitəsilə istənilən ölkəyə qarşı qarayaxma kampaniyası apara bilir.

Faktlar sübut edir ki, ABŞ II Dünya müharibəsindən sonrakı 80 il ərzində Avropa məkanında, o cümlədən, ümumilikdə dünya miqyasında öz hegomonluğunu təmin etmək üçün bu mexanizmdən də faydalanıbdır. "Humanitar yardım göstərmək", "demokratik inkişafı dəstəkləmək" adı ilə çoxsaylı "donor institutlar" və "QHT şəbəkələri" formalaşdırıb. ABŞ-ın hansısa regionda maraqları təhlükəyə düşəndə həmin "donor institutlar" və peyk "QHT şəbəkələri" aktivləşiblər. Ərazisində fəaliyyət göstərdikləri milli hökumətləri fakt qarşısında qoyaraq, güzəştlərə sövq ediblər. Belə proqramların işlək halda saxlanılması üçün ABŞ-da tam bir dövlət mexanizmi yaradılıbdır. USAID, NED, Marşall, IREX və digər "beynəlxalq donorlar" məhz bu proqramın icraçıları olaraq meydana çıxarılıblar. Onların çevrələrində QHT, media orqanlarından ibarət şəbəkələr formalaşdırılıb. Ayrı-ayrı ölkələrdə yüzlərlə "milli QHT" vardır ki, öz fəaliyyətlərini istisnasız olaraq Vaşinqtonla koordinasiya edir; okeanın o tayından gələn tapşırıqları qeyd-şərtsiz yerinə yetirir.

Bu baxımdan yanaşsaq, Samanta Pouerin yarıtmaz, naşı fəaliyyəti təkcə USAID-i yox, bütövlükdə, ABŞ-ın xarici siyasət xəttini ifşa edib risk altına salır.

**REPLİKA**

**Hadisə vaqe olur İrəvanın mərkəzi meydanında. Azərbaycanlılar xorla "Qarabağ" mahnısını oxuyurlar. Sonra bu videonu yayan Qərib Babayan saxlanılır. Ona qarşı ekstremizmi, irqi nifrəti təbliğ etməsi ilə bağlı ittiham irəli sürülür. Aydın məsələdir ki, bu həbs ən yuxarı instansiyadan verilmiş sifariş əsasında, həm də xüsusi məqsədlə həyata keçirilir. İntəhası, Paşinyan hökumətinin dünyaya nümayiş etdirməyə hazırlaşdığı "tolerantlıq" oyunu baş tutmur. Məhkəmə Qarabağ mənşəli hay alimin həbsi ilə bağlı vəsatəti rədd edir. Çünki Babayanın polis tərəfindən saxlanılması və hakim qarşısına çıxarılması İrəvanda qısamüddətli etirazlara, hətta mərkəzi yolun bağlanmasına səbəb olur. Bu səbəbdən Babayan sərbəst buraxılır.**

# İrəvanda "Tolerantlıq" oyunu keçmədi

Bu barədə erməni mediası geniş xəbərlər dərc etməkdədir. Məsələnin mahiyyətinə bir daha nəzər salaq. Xatırladaq ki, İrəvanın mərkəzində "Qarabağ" mahnısını oxuduğuna görə saxlanılan İran vətəndaşı, soydaşımız xuliqanlıq bəhanəsi ilə Ermənistan polisi tərəfindən həbs edilib. Yanvarın 30-da məlum videonu öz səhifəsində paylaşan Müstəqil Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Qərib Babayan Ermənistan hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. O, inzibati nəzarətə götürülüb və ictimaiyyət qarşısında çıxış etmək hüququ məhdudlaşdırılıb.



İrəvana turist kimi gələn Güney Azərbaycandan olan soydaşlarımız Bəhram Nəsibovun bəstələdiyi "Qarabağ" mahnısını oxuyaraq rəqs ediblər. Bu videonu da internetdə yayan Babayanın kəskin şərhlərlə müşayiət olunan paylaşımını on minlərlə erməni təkrar paylaşaraq, hadisəni "kriminal şou" statusuna qədər yüksəldiblər. Nəticədə, Ermənistanın Milli Təhlükəsizlik Nazirliyinin sorğusu əsasında videonu yayan Qərib Babayan ekspremist kimi saxlanılıb.

Video-görüntünü "bir qrup İran azərbaycanlısının informasiya təxribatı" adlandıran hay saytları yazırlar ki, saxlanılan şəxs polis tərəfindən uzun zaman izlənilib və bundan sonra tutulub. Erməni mediasının yaydığı məlumata görə, Erebuni polis şöbəsinə aparılan İran vətəndaşı, 40 yaşlı Milard Vahid Tiqran Mets prospektində ictimai asayişi kobud şəkildə pozmaqda, cəmiyyətə hörmətsizlik etməkdə, həmçinin ictimai nəqliyyatda nalayiq hərəkətlər etməkdə ittiham olunur. Aydın məsələdir ki, iranlı soydaşımızın həbsi Ermənistanın azərbaycanlılara və ümumilikdə, türk mənşəli şəxslərə qarşı sərgilədiyi ayrı-seçkilik, irqi nifrət, dözümsüzlük nümunəsi kimi qiymətləndirilməlidir. Ermənistanın rəsmi dairələri konkret bu hadisəyə "həssas yanaşıldığını", belə halların milli təhlükəsizlik məsələsi kimi qəbul edildiyini, hətta "tolerant davranıldığını" sərgiləməyə çalışıblar.

Ermənistan baş nazirinin Vaşinqton səfəri ərəfəsində Ağ ev Administrasiyasının diqqət diapazonuna düşmək, özünü "sülh göyərçini" kimi göstərmək cəhdi kimi şərh edənlər də var. Bu zaman hay ekspertlərdən biri Paşinyanın bu yersiz səylərini hay əsilli amerikalı porno-ulduz Kim Kardaşyanın izzəti-nəfs barədə çıxışları qədər saxtakarlıq və riyakarlıq nümunəsi adlandırıb.

Ermənistan və İran arasında mövcud diplomatik münasibətləri nəzərə alsaq, İran vətəndaşının saxlanılması faktının İrəvan–Tehran əlaqələrinə necə təsir edəcəyi də maraq doğurur. Məlum hadisə ilə bağlı İranın Ermənistandakı səfirliyinin rəsmi mövqeyi hələ ki, açıqlanmayıb. Saxlanılan soydaşımızın harada olduğu və ona qarşı hansı ittihamların irəli sürüldüyü barədə məlumatların yaxın günlərdə veriləcəyi gözlənilir.

Hay eksperti haqlıdır: Nikol Paşinyan ABŞ-a səfəri öncəsi Babayanı tutdurmaqla "demokrat dövlət başçısı", "tolerant lider" imicini möhkəmləndirməyi hədəflədiyi şübhəsizdir. Amma hay baş nazirin hərəklətlərindəki diplomatik təzad göz qabağındadır: o, bir yandan "Qarabağ Azərbaycandır" deyir, digər tərəfdən isə "Qarabağ" mahnısını oxuyanları, videosunu yayanları həbs etdirir.

***İ.HƏSƏNQALA***
***XQ***

# SOSİAL XƏBƏRLƏR

## 20 min işsiz özəl biznes qurub

***Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa dəstək layihəsi" barədə növbəti ictimai dinləmə Şabran rayonunda təşkil olunub. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə bildirilib.***



Qeyd edilib ki, işaxtaran və işsizlərin, o cümlədən öz biznesini qurmaq istəyənlərin iştirakı ilə keçirilən görüşdə layihənin hədəf və məqsədlərindən, əhatə dairəsindən bəhs edilib. Layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblərdən, proqramın gözlənilən faydalarından, fəaliyyət qaydalarından söz açılıb.

Layihə çərçivəsində avadanlıqlarla təmin edilməklə kiçik bizneslərini uğurla davam etdirən şəxslərin öz işlərini genişləndirməsinə dəstək məqsədilə keçirilən "Həvəsləndirmə mükafatı" müsabiqəsində iştirak şərtləri barədə də məlumatlar verilib. Bildirilib ki, layihə həssas qruplara aid şəxslərin kiçik biznesə çıxışına imkan yaradır. Artıq 20 mindən çox işsiz layihə çərçivəsində aktivlərlə təmin olunaraq istehsal və xidmət sahələri üzrə kiçik bizneslərini yaradıb.

Layihənin uğurlu icrasının nəticəsi olaraq bu ilin sonunadək həmin rəqəmin 25 minə çatdırılması planlaşdırılır.

## Hacıqabulda nümunəvi kiçik təsərrüfatlar



***Hacıqabulda rayon sakinləri – Məhəmməd Qarayev və Aynurə Mənafovanın kiçik təsərrüfatlarına baxış keçirilib. Proqram çərçivəsində verilmiş aktivlər hesabına M.Qarayev avtotəmizləmə xidmətləri üzrə, A.Mənafova isə dərzi sexini yaratmaqla kiçik bizneslərini qurublar.***

Onlar işsiz və işaxtaran şəxslərin məşğulluq imkanlarının artırılması, habelə kiçik bizneslərini qurmaları üçün göstərilən dəstəyə görə dövlət başçısına təşəkkürlərini ifadə ediblər. Verilmiş aktivlərdən düzgün istifadə edərək kiçik bizneslərini inkişaf etdirməyə çalışdıqlarını bildiriblər.

Qeyd edilib ki, ötən dövrdə Hacıqabul rayonunda 1000-dək şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb.

## DOST Qarabağda 1600-dən çox bərpa xidməti göstərib

***Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Bərdədə yerləşən Qarabağ Regional DOST Mərkəzinin "RehaPoint"– Reabilitasiya Məntəqəsində bərpa xidmətlərini davam etdirir. 2023-cü ilin dekabrın 1-dən fəaliyyətə başlayan məntəqədə ötən dövrdə 1600-dən çox əlil bu xidmətlərdən yararlanıb.***




Bölgədə yaşayan əlilliyi olanlara burada ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətləri göstərilir. Məntəqədə əlillərə ehtiyaclarına uyğun 800-dən çox bərpa vasitəsi də verilib.

## 112 nəfər peşə hazırlığından keçib

***Dövlət Məşğulluq Agentliyi Bakı, Gəncə, Göyçay və Qarabağ Peşə Hazırlığı mərkəzlərində kurslar təşkil edib. Qurum 112 işsizi əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb edib.***




Burada müdavimlərə nəzəri və praktiki biliklər tədris olunur. İşəgötürənlərlə əməkdaşlıq edilməklə təşkil olunan kursları uğurla başa vuran şəxslərin işlə təminatı da həyata keçiriləcək.

Qurumdan bildiriblər ki, ümumilikdə, hazırda agentlik 175 prioritet istiqamət üzrə kurslar təşkil edib.

***Z.HÜSEYNOVA***
***XQ***

Güney Azərbaycanın dünəni

# XVIII əsr Təbrizinə işıq salan araşdırma

**Son dövrlərdə Azərbaycanın və qonşu ərazilərin orta əsrlər sosial-iqtisadi tarixinin Osmanlı maliyyə-vergi reyestrlərinin – tapu təhrir dəftərlərinin əsasında tədqiqi ölkəmizdə gərəkli elmi istiqamətlərdən birinə çevrilib. Azərbaycan tarixşünaslığında belə araşdırmanın əsasını qoymuş görkəmli şərqşünas akademik Ziya Bünyadovun istedadlı davamçılarından akademik Şahin Mustafayevin ötən ilin sonunda çapdan çıxmış 2 cildlik “Təbriz livasının müfəssəl dəftəri” kitabı elmi ictimaiyyətin böyük marağına səbəb olub.**




1728-ci ildə Osmanlı məmurlarının tərtib etdikləri və iki hissədən ibarət o müfəssəl dəftərin əlyazma nüsxəsi İstanbulda Türkiyə Cümhurbaşqanlığı Osmanlı Arxivində saxlanılır. 6 əsrdən artıq mövcud olmuş Osmanlı dövləti bu sənədlərdən vergitutma məqsədilə istifadə edib. Şahin Mustafayev bundan əvvəl həmin arxivin materialları əsasında 1595-ci il tarixli “Lori vilayətinin icmal dəftəri” və 1728-ci ilə aid “Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı)” kitablarını da nəşr etdirib. Müəllif müfəssəl dəftərləri osmanlıcadan çevirib, ön söz yazıb və şərhlər verib.





Yeni nəşrin əhatəli ön sözündə Təbrizin müxtəlif dövrlərə aid tarixi, baş vermiş dağıdıcı zəlzələlər, şəhərin xarici səyyahların gözü ilə təsviri, qədim meydanlar və küçələr və s. barədə geniş məlumat verilir. Bildirilir ki, Elxanilər dövründə Təbriz paytaxt olduğuna görə insanlar kütləvi surətdə bu şəhərə axışıb gəlmişdir. Əhali o qədər çoxalmışdır ki, Təbriz qapılarının arxasında da iri yaşayış məskənləri əmələ gəlmişdir. Böyük Elxani hökmdarı Qazan xan (1295–1304) Təbrizin ətrafında müdafiə divarlarının çəkilməsi haqqında fərman vermişdir.

Qazan xan Təbrizdə çoxlu bazarlar, karvansaralar, hamamlar, emalatxanalar və s. də tikdirmişdir. Təbriz böyük ticarət, elm, sənətkarlıq və mədəniyyət mərkəzi olmuşdur. Qazan xanın ölümü ilə tikintisi başa çatmamış müdafiə divarlarının uzunluğu 25 min addıma (təxminən 15 km) çatırmış. Sonrakı dövrlərdə Təbrizə gələn xarici səyyahlar onu tamamilə bağ-bağçalar və yaşıllığa qərq olmuş bir şəhər kimi təsvir etmişlər.

Akademik Təbrizin tarixi meydanları barədə məlumat verərkən bildirir ki, qədim Xiyaban məhəlləsinin mərkəzi meydanı orta əsrlərdə xalq arasında “Qurd meydanı” adlandırılırmış. Burada əhlilləşdirilmiş canavarların döyüşü keçirilir, əhali bu yarışları çox sevirmiş. Lakin belə əyləncələr təhlükəli olduğundan I Şah Abbas zamanında qadağan edilmişdir.

Ümumiyyətlə, Təbriz şəhəri Rəvvadi, Atabəylər, Elxani, Cəlairi, Qaraqoyunlu, Ağqoyunlu və erkən Səfəvi sülalələrinin dövründə Azərbaycanın paytaxtı və Şərqlə Qərbi birləşdirən İpək yolu üzərində əsas ticarət və sənətkarlıq mərkəzi kimi dünya tarixində möhtəşəm iz buraxmışdır.

Lakin XVIII əsrin əvvəllərində təcavüzkar Rusiya imperiyası Səfəvi dövlətinin zəifləməsindən istifadə edərək onun Xəzəryanı vilayətlərini işğal etmişdir. Rusiyanın cənuba, Azərbaycan torpaqlarına yayılmasını istəməyən Osmanlı dövləti isə 1723-cü ildə hərəkətə keçib Səfəvi imperiyasının şimal və şimal-qərb ərazilərini tutmuşdur. Bu zaman osmanlılara ən ciddi müqaviməti Təbriz göstərmişdir.

Osmanlıların həyata keçirdiyi yeni inzibati-ərazi bölgüsünə görə Təbriz şəhəri və ətraf ərazilərə liva və ya sancaq inzibati statusu verilmişdir. Təbriz livasına Təbriz şəhərinin özü və 18 nahiyə daxil olmuşdur. XVI əsrin sonlarında əvvəlki Osmanlı fəthindən sonra tərtib edilmiş icmal dəftərinə görə, Təbriz livası 15 nahiyədən ibarət olmuşdur. Bunlardan ikisi – Dehharqan (xalq arasında “Tufarqan”) və Məvazixan nahiyələri tarixdəki izi ilə diqqəti cəlb edir.

XVI əsrdə yaşamış və “Azərbaycan aşıqlarının şahı” sayılan Aşıq Abbas Tufarqanda doğulduğuna görə bu adla tanınmışdır. Müfəssəl dəftər bir daha təsdiq edir ki, ərazinin daha düzgün adı Dehharqandır. Azərbaycanın siyasi mühacirlərinin 1930-cu illərində Türkiyədə nəşr etdikləri “Azərbaycan yurd bilgisi” dərgisində yer alan bir məqalədə də sənətkarın adı doğru olaraq Aşıq Abbas Dehharqanlı kimi verilmişdir. Məvazixan nahiyəsinin adı isə 1727-ci il tarixli Naxçıvan sancağının müfəssəl dəftərində qeydə alınan Məvazixatun nahiyəsi adının oxşarlığı ilə diqqəti cəlb edir.

Təbriz şəhəri böyük məskun ərazi olduğundan əhalinin siyahıyaalınması məhəllələr və küçələr üzrə keçirilmiş və bu, müfəssəl dəftərdə əksini tapmışdır. Qiymətli tarixi qaynağı nəşrə hazırlayan tədqiqatçı onun əhəmiyyəti barədə yazır: “Təbriz dəftəri elə bir unikal mənbədir ki, onun əsasında bu torpaqlarda yalnız Osmanlı vergitoplama praktikasının özəllikləri deyil, həm də sosial münasibətlər, şəhər həyatı, kənd təsərrüfatı, tarixi demoqrafiya və Təbrizin XVIII əsrin 20-ci illərindəki toponimikasını öyrənmək mümkün olur”.

Osmanlı idarəçilik qaydalarına uyğun olaraq yeni fəth edilmiş ərazilərdə inzibati-ərazi bölgüsü aparılırdı. Buna əsasən, vergi ödəyən əhali siyahıya alınır, obyektlər müəyyən edilir və müvafiq sənədlər tərtib edilirdi. Bu sənədlər iki cür olurdu: “müfəssəl” və “icmal” dəftərləri. Müfəssəl dəftərdə vergi obyektləri və subyektləri dəqiqləşdirilirdi.

Taxıl zəmiləri, mal-qara, meyvə və üzüm bağları, dükanlar, sənətkarlıq emalatxanaları, dəyirmanlar və s. vergi obyektləri idi. Vergi ödəyən əhali isə “rəiyyət” adlandırılır, iqtisadi durumuna görə fərqli statusa sahib olurdular. Onlar dövlət xəzinəsinə müvafiq qaydada müxtəlif rüsumlar verməklə mükəlləf olurdular.

Osmanlı idarəçiliyində əkinçilik üçün rəiyyətə verilən torpaq sahələri “ciftlik” deyilən parçalara ayrılırdı. Ciftliyin sahəsi torpağın keyfiyyətindən asılı olaraq dəyişirdi. Eni və uzunu 40 iri addım olan ərazi 1 dönüm hesab edilirdi. Onun ərazisi, təxminən, 919,3 kvadratmetr və ya 0,092 hektar idi.

Əla növ məhsuldar torpaqlarda 1 cift ərazi 80, orta keyfiyyətli torpaqlarda 100, məhsuldarlığı az olan aşağı keyfiyyətli torpaqlarda isə 130 dönümə bərabər götürülürdü. Evli olmayan şəxslərə cift verilmirdi. Yarım ciftdən az əkin sahəsi olanlara bennak deyirdilər, cabaların isə əkin sahəsi yox idi.

Müfəssəl dəftərlər, bir qayda olaraq, fəthlərdən 2-3 il sonra tərtib edilirdi. Bunun səbəbi o idi ki, Osmanlı hökuməti müharibə vaxtı qaçıb getmiş əhalinin geri qayıtması, eləcə də onun iqtisadi cəhətdən ayağa qalxması üçün vaxt verirdi.

Ailə vəziyyətinə görə, bütün kəndlilər evli və subay olmaqla iki qrupa, sosial durumuna görə isə 1 cift əkin sahəsinə malik olanlar, yarım cift əkin sahəsinə malik olanlar, yarım ciftdən az əkin sahəsinə malik olanlar (bennak), az torpaqlı, subay, atasının təsərrüfatında çalışan kəndlilərə (mücərrəd) və torpaq sahəsi olmayan kəndlilərə (caba) bölünürdlər. Müəllifin hesablamalarına görə, 1728-ci ildə Təbriz livasında 2 min 729 ciftçi, 2 min 221 yarımciftçi, 8 min 125 bennak, 4 min 413 mücərrəd və 5 min 928 caba, cəmi 23 min 416 nəfər vergi ödəyicisi qeydə alınmışdır.

Osmanlı araşdırmalarında qəbul edilmiş demoqrafiya prinsiplərinə görə, hər hansı bir inzibati vahidin əhalisini hesablamaq üçün orada qeydə alınmış ailə sayını 5-ə vurmaq lazımdır (subayların ayrıca ailəsi olmadığına görə bu hesablamalarda onları nəzərə almırıq). Beləliklə, 1728-ci ildə Təbriz livasında 19 min ailə və 95 min nəfər əhalinin yaşadığı məlum olur. Bu rəqəmlərdən həm də məlum olur ki, vergi ödəyicilərinin yalnız 21 faizi 1 cift və ya 0,5 cift əkin sahəsinə malik idi. Cabalar, yəni özünün torpaq sahəsi olmayanlar ümumi əhalinin 25 faizini təşkil edirdi.

Təbriz şəhərində 5 min 687 müsəlman, 610 xristian, 54 yəhudi, cəmi isə 6 min 351 vergi ödəyicisi qeydə alınmışdır. Onların 18 faizinin subay (1143 nəfər) olduğunu nəzərə alsaq, həmin vaxt Təbriz şəhərində 5 min 206 ailə qeydə alınmış olur ki, bu da təxminən, 26 min nəfər demək idi. Müsəlmanlar əhalinin 89,6 faizini təşkil edirdilər.

Beləliklə, 1728-ci ildə şəhər də daxil olmaqla, bütün Təbriz livasında, təqribən, 121 min nəfər əhali yaşayırdı. Müqayisə üçün deyək ki, İrəvan livasının 1727-ci il tarixli müfəssəl dəftərinə görə, orada, təqribən, 70 min nəfər əhali yaşayırdı. Gəncə – Qarabağ əyalətinin 1728-ci il tarixli müfəssəl dəftərində 19 min 395, başqa sözlə, Təbriz livasının kənd əhalisindən 4 min az vergi ödəyicisi qeydə alınmışdır.

Təbriz livasında 23 min 416 vergi ödəyicisinin 4 min 413-ü, yəni 22,7 faizi subay olmuşdur. 19 min 395-dən bu faizi çıxdıqda, təxminən, 15 min ailə qalır ki, bu da 75 min nəfər deməkdir. Beləliklə, eyni dövrdə Təbriz şəhərindən və 18 nahiyədən ibarət Təbriz livasının əhalisi İrəvan şəhəri və 13 nahiyədən ibarət İrəvan livası əhalisindən 72,9 faiz, 37 nahiyəyə bölünmüş ,5 livadan ibarət Gəncə – Qarabağ əyaləti əhalisindən 61,3 faiz artıq olmuşdur.

Təbriz şəhərinin 1728-ci ildəki durumu onun əhalisinin kəskin azaldığını, iqtisadi cəhətdən tənəzzülə uğradığını və əvvəlki əhəmiyyətini itirdiyini göstərir. Bu isə uzun sürən Osmanlı – Səfəvi müharibələri, onun paytaxt statusunu itirməsi və 1721-ci ildə şəhərdə baş vermiş dəhşətli zəlzələ ilə bağlı idi.

Təbriz livasının əhalisinin həyat səviyyəsini araşdırmaq üçün ustad şairimiz Şəhriyarın uşaqlığının keçdiyi Xoşginab kəndini (Xanımrud nahiyəsi) seçdik. Bu kənd məşhur Heydərbaba dağının ətəklərində yerləşirdi. 1728-ci ildə bu kənddə 3 nəfər cift sahibi, 2 nəfər yarımciftçi, 4 bennak, 6 caba, cəmi 15 ailə və ya vergi ödəyicisi yaşayırdı. Onlar əldə etdikləri dənli bitkilərdən vergi kimi xüms (beşdə bir deməkdir) ödəyirdilər.

Əldə etdikləri dənli bitkilərdən və digər gəlir mənbələrindən ildə 4 min 879 ağça vergi verdikdən sonra, təxminən, ailəbaşına 900 ağça gəlir götürmüşdülər. Xoşginablılar ildə ailəbaşına cəmi 509 kiloqram taxıl (buğda, arpa, darı), noxud və mərcimək istehlak etmişdilər ki, bu da 5 nəfərlik ailə üçün adambaşına, təxminən, 100 kiloqram demək idi. Bu rəqəm tələb olunan miqdardan, ən azı, 2 dəfə az idi. Məhsuldarlıq da çox aşağı olmuşdur: 40 hektardan artıq əkin sahəsindən cəmi 10,5 ton məhsul götürülmüşdür.

Müfəssəl dəftərdə əkin məhsullarının qiyməti haqqında məlumat da öz əksini tapmışdır: buğdanın 1 kilesi (təxminən, 25 kiloqrama bərabər çəki vahidi) 40, arpanınkı 30, darınınki 20, noxud və mərciməyinki isə 60 ağça olmuşdur. Həmin vaxt İrəvan livasında buğdanın 1 kilesi 30, arpa və darınınki isə 20 ağça idi. Göründüyü kimi, kitabda əhalinin sosial-iqtisadi vəziyyəti barədə dolğun və son dərəcə qiymətli məlumatlar da yer almışdır.

Müfəssəl dəftərin bir tarixi qaynaq olaraq verdiyi ən dəyərli məlumatlardan biri də Təbriz livasında o dövrdə mövcud olan yer və şəxs adlarıdır. Müəllif haqlı olaraq hesab edir ki, kitabda yer alan antroponimik vahidlər – şəxs adları o dövrün mədəni dəyərlər sistemi haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Eyni zamanda, şəxs adları arasında türkmənşəli adların çoxluğu Təbriz əhalisinin türk etnik mənsubiyyətini təsdiq edən önəmli faktdır.

Sonda bildirək ki, Beynəlxalq Türk Akademiyasının prezidenti kimi böyük və məsul vəzifə daşıdığından vaxtının darlığına baxmayaraq, akademik Şahin Mustafayevin böyük zəhmət hesabına başa gətirdiyi bu kitab Azərbaycan tarixinin mənbəşünaslığını zənginləşdirən qiymətli bir nəşrdir. Bu qaynağın araşdırılıb işığa çıxarılması tarixçi alimin tarix elmimizin növbəti uğurudur.

***Nazir ƏHMƏDLİ,***
***Azərbaycanda Atatürk Mərkəzinin əməkdaşı, tədqiqatçı alim***

Şəhidlərimiz

# Qəbələdən Cəbrayıla uzanan əbədiyyət yolu

**Xəyanətkar erməni toplumunun quduz avantürasının xalqımıza gətirdiyi faciə və savaşlar neçə ailənin çırağını söndürdü, qulağından toyun sədası getməmiş nə qədər gəlin boynubükük qaldı. Haqqında söhbət açdığımız Tapdıq Çingiz oğlu Ağayevin şəhadətə yüksəlməsilə Qəbələ rayonunun Tüntül kəndində bir ailə də beləcə faciəyə düçar oldu. Ata-ana oğulsuz, bacı qardaşsız, gənc ailə başsız, 1 yaş 3 aylıq oğul atasız qaldı.**



2 dekabr 1990-cı ildə doğulan Tapdıq 1996–2005-ci illərdə Müşfiq Murtuzov adına Tüntül kənd orta məktəbində, sonra Bakı Sənaye-Pedaqoji Kollecində təhsil alıb. Hərbi xidmətini 2010– 2012-ci illərdə Qusar rayonunda başa vurub. 2016-cı ildə arzusu ilə Bakı şəhərində Müdafiə Nazirliyinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursuna başlayıb. Bacarığını, hərb sənətinə olan sevgisini, təlimlərdəki uğurlarını, cəsarətini, qorxmazlığını rəhbərlik həmişə dəyərləndirib.

Kursu uğurla bitirdikdən sonra Həmlə taborunda baş atıcı kimi xidmət edən Tapdıq Vətən müharibəsi başlayan zaman cəbhəyə yola düşüb. Oktyabrın 8-də Füzuli, Cəbrayıl istiqamətində 25 döyüş yoldaşı ilə birlikdə şəhidliyə yüksəlib. 22 gün neytral zonada qalan nəşini oktyabrın 29-da götürmək mümkün olub. Oktyabrın 30-da doğulduğu Qəbələ rayonunun Tüntül kəndində, böyük izdihamla kənd qəbiristanlığında dəfn olunub. Ölümündən sonra Prezident İlham Əliyevin sərəncamı ilə şəhid Tapdıq Ağayev “Vətən uğrunda” medalı ilə təltif edilib.

Ailədə bir bacı, bir qardaş olublar. Oğlunun şəhid olduğunu biləndən səhhətində narahatlıq yaranan anası Firuzə Ağayeva Tapdıqdan sonra cəmi 44 gün yaşaya bilib. Oğlunun 40 mərasimini verdikdən 3 gün sonra dünyasını dəyişib. Şəhidin atası Çingiz Ağayev də oğlundan sonra insult keçirib. Hələ də hərəkət etməsində, nitqində ləngimələr var. Hər işini özü görür. Təsəllisi evinin bir otağında Tapdığa aid əşyaların, paltarların, sənədlərin toplandığı “muzeydir”.

Tapdıq 2018-ci ildə ailə həyatı qurmuşdu və bu evlilikdən 1 yaş 3 aylıq bir oğlu vardı. Həyat yoldaşı ilə bir-birilərini çox seviblər. Gülşənin fikrincə, Tapdığın sevgisi bir başqa olub. Onun yeganə arzusu oğlu Uğuru atası kimi mərd, ədalətli, mərhəmətli, cəsarətli və qorxmaz böyütməkdir. Gülşənin xatirələri yarıda qırılmış bir ömrün dərdli vərəqləridir:



– Ölüm haqdır deyirlər, hamı üçündür. Amma 2 il əvvəl toyunda qol açıb oynadığın, ən xoşbəxt günündə yanında olduğun, sevincinə ortaq bir adamın həyatda olmaması, ondan artıq keçmiş zamanda danışılması çox üzücüdür. Fərq odur ki, sən onun şəhid olmasının qürurunu yaşayırsan.

Tapdığın sevgisi tamam fərqli idi. Çox qayğıkeş davranırdı, özü də həddindən artıq mərhəmətli idi. Uğuru dünyaya gətirmək üçün əməliyyata girəndə də yanımda dayandı, məni tək buraxmadı. O vaxt çox kövrəlmişdi, elə bilirdi, məni itirəcək. Düşünürdü ki, artıq sondur. Əməliyyat yaxşı keçdi, Uğurumuz dünyaya gəldi. Biz xəstəxanadan çıxanda o qədər sevinmişdi ki, evi başdan-ayağa bəzəmiş, hər şeyi gəlişimizə hazır etmişdi. Ürəyini belə tərəddüdsüz çıxarıb verərdi bizim üçün. Məni incitməkdən çox ehtiyatlanırdı.

Deyirdi ki, sənsiz həyatı təsəvvür belə etmirəm. Belə sözləri söyləməkdən də çox çəkinirdi, danışmaq istəmirdi. Sanki bilirdi ki, həyatdan belə tez köçəcək. Fikirləşirdim ki, ay Allah, görəsən, bu qədər sevginin, çox istəməyin axırı necə olacaq? Ağlıma min cür fikir gəlirdi. Amma sən saydığını say. Ağlıma gəlməyən başıma gəldi.

Sentyabrın 26-sı axşam saat 9-da evə gəldi. İçiboş patronlar gətirmişdi özü ilə. Adı yazılan kağızları içinə qoyub kəlbətinlə ağzını bərkitdi. Bütün gecə yata bilmədim. Sadəcə, onun üzünə baxa-baxa durdum. Bir onu dedi ki, döyüşə görə narahat deyiləm, sizə görə narahatam. Ertəsi gün səhər saat 5-ə işləmiş sağollaşdı, məni möhkəm bağrına basdı. Həmin gün anası da bizdə idi, amma nə anası ilə sağollaşdı, nə də Uğurla görüşdü. Yəqin kövrələcəyini bilib. Evimiz 4-cü mərtəbədə idi. Pəncərədən baxdım, arxaya döndü, bilirdi ki, pəncərədən baxıram, əl yellədi, sonra iti addımlarla qaranlıqda gözdən itdi.

Sentyabrın 29-da, 30-da, oktyabrın 3-də bizimlə əlaqə saxlamışdı. Hər telefon zəngində mənə deyirdi ki, gələcəyəm. Axırıncı dəfə oktyabrın 6-da danışdıq. O danışan, bu danışan… Ayın 7-də zəng etdim, götürmədi, 8-i zəng etdim, cavab olmadı. Ayın 8-də özümə yer tapa bilmirdim, tikan üstündə idim, elə bilirdim, nəsə xəbər eşidəcəm. Sən demə, həmin gün vurulublarmış…

Ayın 8-i Cəbrayıl–Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin pusqusuna düşərək şəhid olublar. Mənə ayın 13-də zəng gəldi. Tapdığın ünvanını soruşdular. O an, sanki, ürəyim yerindən qopdu. Qışqırdım ki, Tapdığa nə olub, niyə ünvanını soruşursunuz? Dedilər ki, sadəcə, dəqiqləşdirmək üçün soruşuruq, narahat olmayın. Sonra öyrəndim ki, Tapdıqgil pusquya düşüblər, cəsədləri bir müddət döyüş ərazisində qalıb.

Tapdığın anası, atası, bacısı, həyat yoldaşı onun sağ qalması üçün tam 22 gün dua ediblər. Ümid ediblər ki, bəlkə, onun sağ qaldığı xəbəri gələ. Amma tale yazısı yazılmışdı, vaxt tamam olmuşdu. Gedən getməli idi.



Gülşəni oktyabrın 30-da atasının evindən, “qayınanan özünü pis hiss edir”, – deyə aparıblar. Yolboyu narahat, dua edə-edə gedib ki, “nə olar, Tapdıq olmasın, Tapdıq olmasın”. Əlində bayraq olan adamların onların evinə tərəf getdiklərini görəndə dünyası qaralıb. Bir boşluğa düşüb, donub qalıb. Cənazəni gətiriblər. Gülşən o səhnəni ömür boyu unutmayacaq. Həyatının o anda söndüyünü hiss edib. Bir bayraq, bir tabut. Üzünü heç olmasa, son dəfə görə bilməyib.

Oktyabrın 8-də şəhid olan Tapdıq Ağayevin nəşi ayın 30-da uğrunda canından keçdiyi torpaq ilə bütünləşib. Tapdıq bu dünyadan köçdükən sonra yaxınlarının acılarına biganə qala bilməyib. Doğmalarının yuxularına gələrək, onlardan narahat olmamalarını istəyib. Gülşənin yuxusuna da gəlib deyib ki, məndən nigaran olma, yaxşıyam, rahatam, Uğuru qoru. İndi Gülşənin təsəllisi Tapdığın yazdığı sevgi dolu mesajlar, keçirdiyi gözəl günlərin, anların yaddaşına hopdurduğu xatirələr və onun yadigarı Uğurdur.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Polad Bülbüloğlu – 80

# Sənətdə – müğənni, bəstəkar, siyasətdə – diplomat, deputat

**Dünən Azərbaycan Respublikasının Prezidenti ictimai-siyasi və mədəni həyatda uzunmüddətli səmərəli fəaliyyətinə görə Polad Bülbüloğlunu 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edib. Bu gün axşam isə Bakıdakı Heydər Əliyev Sarayında görkəmli sənətkarın yubiley gecəsi olacaq və tanınmış incəsənət nümayəndələri çıxış edəcəklər. Bu xəbər görkəmli sənətkarın səhnədə ilk çıxışı ilə bağlı oxuduğumuz bir əhvalatı yadımıza saldı…**






Qələm dostumuz Vaqif Bəhmənli yazır ki, yenicə xəritəyə düşmüş Mingəçevirin inşaat işlərinə sonralar Nazirlər Soveti sədrinin müavini olacaq Kamran Hüseynov rəhbərlik edən vaxtlarda ora yaradıcı insanlar çox gələrdi. "Bir dəfə böyük müğənni Bülbül gəlmişdi. Dedi ki, səhnə təşkil elə, konsert verim. Kamran güldü:

– Ay qardaş, – dedi, – bu çölün irəməsində hardan tapım səhnəni?

Gördü ki, Bülbül küsən kimi olur. Dərhal sözünün ardını gətirdi:

– Sən darıxma, axşama səhnə məndən.

Adamı tökdü Kürün qırağında boş bir düzəngaha. Taxta, balta, mişar. Axşamüstü bir orkestrin yerləşəcəyi səhnə hazır idi. Səhnənin önündə kubik daşların üstünə uzun-uzun taxtalar atıldı. Bu da tamaşa salonu.

Beləcə, səhnə düzələndən sonra bir köhnə piano tapıb gətirdilər. Polad Bülbüloğlunun o vaxt 5–6 yaşı olardı. Atasıyla o da gəlmişdi. Kamran Hüseynov balaca Poladı özü qucağına alıb səhnəyə çıxdı. Polad piano çaldı, Bülbül də oxudu".

Deməli, özünü "60-cılar"dan sayan Polad Bülbüloğlu 6 yaşından səhnə fəaliyyətinə başlayıb. Həm də korifey bir sənətkarın – atasının xeyir-duası, alqışıyla. Sonralar özünün dediyi kimi, konservatoriyada Qarayev sinfinin yetirməsi Polad Bülbüloğlu ata ocağından əxz etdiyi ilahi enerji ilə yeni sənət çağırışlarına uyğun gözəl əsərlər, ifalar yaratdı, dünya şöhrəti qazandı. Buradaca deyək ki, onun babası – Bülbülün atası, şuşalı Məşədi Rza dindar olsa da, yaxşı səsi varmış. Özü oxumasa da, şəksiz ki, səsindəki şirinlik, kolorit nəsli ötürmə ilə oğluna və nəvəsinə keçib.

Səhnəmizin əvəzedilməz Koroğlusu – SSRİ Xalq artisti, Stalin mükafatı laureatı Bülbül 1957–1961-ci illərdə eyni adlı operada 400 dəfə səhnəyə çıxmışdı. "Sənsiz", "Sevgili canan", "Nalədəndir" (hər üç romansın bəstəkarı Ü.Hacıbəylidir) professional musiqilərinin, "Xumar oldum", "Kəklik", "Mehribanım", "Süsən sünbül", "Gülə-gülə", "Əlimi bıçaq kəsibdi" kimi xalq mahnılarının bənzərsiz ifaçısı olub.

Yeri gəlmişkən, Poladı ata irsinə qayğıkeşlik nümunəsi sayanlar haqlıdırlar. Müasir texnikanın köməyi ilə Bülbülün səs yazılarını ideal səviyyədə bərpa etdirib. Bülbül oxuduğu vaxtlarda texnika, səsyazma aparatları çox zəif olduğu üçün bərpaya ehtiyac duyulub. Polad Bülbüloğlu Moskvada Şalyapinin lentləri bərpa olunan xüsusi laboratoriya – studiyada 2 il işləyib və atasının 60-dan çox ifasına 2-ci həyat qazandırıb, onun albomunu yaradıb.

Bülbülün Şuşadakı ev-muzeyinin bərpası da, yəqin, oxucuların yadında olar. İlham Əliyev Şuşa azad ediləndən sonra, 2021-ci il yanvar ayında ailə üzvləri ilə oraya ilk səfərində dağıdılmış ev-muzeyini göstərərək deyib: "Ermənilərin növbəti vandallığı, növbəti düşmənçiliyi. Görün, hətta Bülbülün büstünü, evini nə günə qoyublar. Cavablarını artıqlaması ilə alıblar… Əminəm ki, Polad gəlib atasının evini bərpa edəcək". Elə də olub. Cəmi 1 il sonra yenilənmiş ev-muzeyinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Böyük səhnədə ilk çıxışı 12 yaşında, "Koroğlu" operasının ilk tamaşası öncəsi "Evləri var xana-xana" xalq mahnısı ilə olub. İndiyə qədər qoruyub saxlaya bildiyi, cilaladığı təmiz, təravətli səslə oxuyub. Onun adı gələndə "Şən Azərbaycan", "Bayatı", "Dolalay", "Toy", "Bakı mənim şəhərim", "Gəl, ey səhər", "Şeyx", "Sən və mən" əsərləri çox məşhurdur və indi də reztez səsləndirilir.

Bizim nəsil bəstəkar, ifaçı və aktyor, Xalq artisti, diplomat və deputat Polad Bülbüloğlunu öz yeniyetməliyinin və gəncliyinin kumir müğənnilərindən sayır. "Dilin can incidəndir", "Zəng elə", "Çiçək tapa bilmədim" mahnıları hansımızın təəssüratlarında, zümzümələrində, yaddaşında qərar tutmayıb? Onun ifalarını indi də dinləyəndə gəncliyimizin zərif çiçəklərinin ətrini duyuruq sanki. Buna görə məşhur mahnının söz müəllifi, rəhmətlik Fikrət Qocanın da ruhuna minnətdarıq:

**Siz çiçəkdən çoxsunuz,**
**Çəçəkdən qəşəngsiniz,**
**A yurdumun qızları.**
**Sizin saçlarınıza**
**Düzərəm ulduzları…**

Əvvəllər onun atasına görə irəli çəkildiyini söyləyənlər nəzərə almırdılar ki, Bülbül vəfat edəndə Poladın cəmi-cümlətanı 16 yaşı olub, həyatla çarəsiz üzbəüz qalıb və çox adam onların daim qonaq olduqları ünvanını "unudub". Yalnız müəllimi, ustadı Qara Qarayev və daha bir neçə nəfər Poladdan mənəvi dəstəyini əsirgəməyib. Həmkarımız İradə Tuncay yazır ki, bir neçə ildən sonra həmin bu unudulmuş ailənin başqa bir üzvü (Polad) hamıya öz varlığını xatırlatdı. Salonlar alqışlardan titrədi, sevgi-məhəbbət seli, gül-çiçək yağışı başladı. Cəmi bir neçə ildən sonra…

Onun xatirələrindən: "Kimdənsə 30–40 manat borc alıb Moskvaya gedirdim, orada da sosiska yeyib dolanırdım. Amma mahnılarım xoşa gəlirdi, bəyənirdilər. Efirdən əvvəl neçə instansiyadan keçirdi, bədii şura, redkollegiya, texsovet... amma gedib dinləyiciyə çatırdı. 1966-cı ildən sonra həyat öz axarına düşməyə başladı. Birinci valım 5 milyonluq tirajla bütün Sovet İttifaqında satıldı. 1968-ci ildə "Uşaqlığın son gecəsi" filminə musiqi yazdım. Sonra qastrollara başladım. Yeri gəlmişkən, filmlərə yazılmış mahnılarım çoxdan filmdən ayrılıb öz müstəqil musiqi həyatını yaşayır".

Polad Bülbüloğlu ilk mahnılarından birini uşaqlıq dostu olan Müslüm Maqomayev üçün yazıb. Müslümlə Polad Bakıda bir həyətdə böyüyən yaxın qonşular olublar. Sonralar hər iki məşhur müğənni Moskvada yaşayıb-yaradıb, daim birlikdə olub, dalaşıb-küsüşüb və barışıblar, amma buna baxmayaraq, hər zaman Azərbaycan mədəniyyətinin vüsətinə çalışıblar.

Gəncliyində sürətlə populyarlaşan müğənni Polad Bülbüloğlunun, eyni zamanda, bir bəstəkar kimi estrada orkestri üçün yazdığı süitaları və pyesləri dünyanın nüfuzlu konsert salonlarında səslənib. "Kitabi-Dədə Qorqud" eposunun motivləri əsasında yazdığı "Eşq və ölüm" ikihissəli baleti bu janrda milli musiqi zirvələrindən biridir.

Polad Bülbüloğlunun filmoqrafiyası da zəngindir. Buraya baş rollarda oynadığı, "Rus meşəsinin nağılları", "Qorxma, mən səninləyəm", "Sovet dövrünün parkı", eləcə də musiqiləri səslənən "Babək", "İstintaq davam edir", "Aktrisanın təbəssümü", "Uşaqlığın son gecəsi", "Mən mahnı qoşuram", "Sevinc buxtası", "Dolu" və başqa filmlər daxildir.

Əməkdar incəsənət xadimi (1973), Xalq artisti (1982) Polad Bülbüloğlu 17 il Azərbaycan Respublikasının mədəniyyət naziri (1989–2006), TÜRKSOY-un baş direktoru (1994–2000) olub. TÜRKSOY demişkən, hələ yeniyetmə ikən ona, necə deyərlər, "pantürkist" damğası vurulub. Bu barədə özünün söylədikləri: "1962-ci ildə pasport alanda Bülbüloğlu yazdırdım. Bir az keçmiş məni çağırdılar komsomolun Mərkəzi Komitəsinə. Getdim, dedilər bu nədir, sən pantürkizmi təbliğ eləmək istəyirsən? Dedim nə pantürkizm, atamın adını yaşatmaq istəyirəm. Təsəvvür edin ki, 60-cı illərdə 17 yaşlı bir uşaq bu barədə nə bilər? Amma bu söhbətdən sonra getdim kitabxanaya, tarix kitablarını vərəqlədim. Turançılığın da nə olduğunu öyrəndim, pantürkizmin də. Özləri məni buna vadar etdilər. Buna görə təşəkkür edirəm onlara (gülür)".

Polad Bülbüloğlunun mükafatlarını, təltiflərini saymaqla qurtaran deyil. Yeganə Azərbaycan sənətçisidir ki, 2000-ci ildə Moskvanın "Ulduzlar meydanı"nda onun şərəfinə adlı ulduz yerləşdirilib. 2016-cı ildə isə Rusiya Federasiyasının Rəssamlıq Akademiyasının həyətində heykəli qoyulub. Mərasimdə Polad Bülbüloğlunun oğlu, 15 yaşlı Murtuza Bülbül hər kəsi təəccübləndirib. O səhnəyə çıxaraq, atasının mahnılarından ibarət popurini səsləndirən orkestrə dirijorluq edib.

Bu günlərdə Polad Bülbüloğlunun 80 illik yubileyi münasibətilə Moskvada yenə də konsert təşkil olunub. Yubilyar konsertdən öncə deyib: "Çox həyəcanlıyam. Neçə ildən sonra Rusiyanın əsas konsert zalında – Dövlət Kreml Sarayındakı 6 min nəfərlik zalda solo konsert vermək, məncə, çox vacibdir, önəmlidir. Bilirsiniz ki, müxtəlif hadisələr baş verib. Amma hesab edirəm ki, bu, mədəniyyətə aid deyil. Hər halda, mədəniyyət həmişə öz sözünü deyib. İki ölkə arasında mədəni əlaqələr olub, bu gün də var, bundan sonra da olacaq və olmalıdır".

"Yeddi not" adlanan həmin konsertə Rusiyanın ayrı-ayrı şəhərlərindən də Polad pərəstişkarları gəliblər. Azərbaycan musiqisinə, mədəniyyətinə böyük maraqdan vəcdə gələn bəstəkar-müğənni artıq bütün arzularının həyata keçdiyini də vurğulayıb: "Mənim ən böyük üç arzum var idi. Bu üç arzumu da hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev həyata keçirdi. Birincisi, Qarabağın qayıtması, Şuşanın qayıtması, atamın evinin bərpa olunması idi. İkinci arzum isə Xarıbülbül festivalının yenidən canlanması olub. Bir də güllələnmiş abidələrin Şuşaya, aid olduqları yerə qaytarılmasını diləyirdim. Mənim üç belə arzum vardı, bu üç arzu da həyata keçirilib. Ona görə də özümü xoşbəxt adam sayıram ki, bu günləri görmüşəm".

Rusiya paytaxtındakı konsertdə qonşu ölkənin tanınmış siyasi və mədəniyyət xadimləri də iştirak ediblər. Yubilyarı təbrik etmək üçün səhnəyə Rusiyanın Xalq artistləri Lev Leşenko, Sergey Bezrukov, Azərbaycanın Xalq artistləri Fərhad Bədəlbəyli, Yusif Eyvazov, Elçin Əzizov, Dinara Əliyeva, Özbəkistanın Xalq artisti Fərrux Zakirov, Azərbaycan Dövlət Rəqs Ansamblı, dirijor Murtuza Bülbülün rəhbərliyi ilə Akademik Böyük Konsert Orkestri, O.Lundstrem adına Rusiya Caz Musiqisi Orkestri, Rusiyanın TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini Mixail Qusman, Rusiya Prezidentinin Beynəlxalq Mədəni Əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy və başqaları çıxıblar. Qeyd olunub ki, Polad Bülbüloğlu təkcə müğənni və bəstəkar deyil, bütöv bir dövrün simvoludur. Onun mahnıları nəsilləri birləşdirən, milli musiqimizi zənginləşdirən bir mirasdır.

Yubilyar tamaşaçıları uzun illərdən bəri ürəkləri fəth edən melodik mahnıları və bənzərsiz ifa tərzi ilə sevindirib. Səhnədən bəstəkarın "Qarabağ", "Mənim Azərbaycanım", "Liderin ürəyi", "Gəl, ey səhər", "Zəng et" və digər mahnıları səslənib. Əvəzolunmaz ifa və məlahətli səs əsl istedadın zamanın təsirinə məruz qalmadığını sübut edib. Bəstəkarın dostları və məşhur səhnə adamları sənətkarı səhnədən təbrik edərək onunla birlikdə oxuyublar. "Çiçək tapa bilmədim" deyən sənətkarın səhnəsi ona bağışlanan çiçək dəstələrində qərq olub...

Polad Bülbüloğlu 2024-cü il sentyabrın 1-də keçirilən növbədənkənar parlament seçkilərində Milli Məclisin VII çağırış deputatının mandatını qazanıb. Hazırda MM-də Azərbaycan–Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir. Böyük yaradıcılığına, dünya mədəniyyəti və Azərbaycan xalqına göstərdiyi xidmətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onu Vətənin ən yüksək mükafatları – "Heydər Əliyev", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif edib. Dünən layiq görüldüyü "Vətənə xidmətə görə" ordeni onun mükafatlar kolleksiyasını daha da zənginləşdirdi.

Bəli, Polad Bülbüloğlunun sənəti zamanın sınağından çıxıb və bu gün də çox sevilir. Moskvada keçirilmiş yubiley konsertində deyildiyi kimi, o, unikal yaradıcılığı və tükənməz enerjisi ilə insanlara ilham verməyə davam edir.

*Əli NƏCƏFXANLI*
*XQ*

Yeni nəşr

# "Məhəmməd Əmin Rəsulzadə və müstəqil Azərbaycan"

**AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən ərsəyə gələn "Məhəmməd Əmin Rəsulzadə və müstəqil Azərbaycan" adlı metodik vəsait çapdan çıxıb. Kitab Azərbaycanın görkəmli dövlət və ictimai xadimi, publisist, naşir, ədəbiyyatşünas, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr edilib.**




M.Ə.Rəsulzadənin publisistikası, məzmunlu ədəbi-bədii əsərlərinin təbliği məqsədilə hazırlanmış metodiki vəsaitdən kitabxanaçılar, həmçinin onun yaradıcılığı ilə maraqlanan tələbələr, doktorantlar və digər oxucular istifadə edə bilərlər.

Çoxsaylı kitablara və məqalələrə əsaslanmaqla hazırlanmış vəsaitin elmi məsləhətçisi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, elmi redaktoru MEK-in direktoru Hüseyn Hüseynov, tərtibçiləri MEK-in direktor müavini Şəhla Quliyeva, dosent Knyaz Aslan, ixtisas redaktoru isə biblioqrafiya şöbəsinin əməkdaşı Rəna Cavadovadır.

*XQ*

# Sumqayıt – 2025-ci ilin Gənclər Paytaxtı

**Gənclər və İdman Nazirliyinin, Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Sumqayıt – Gənclər Paytaxtı 2025"in açılış mərasimi keçirilib.**




Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan gənclərinin özlərini hər sahədə doğrultduqlarını söyləyib. O qeyd edib ki, gənclik şəhərinin övladları bu baxımdan bütün sahələrdə daim nümunə göstəriblər. Ümummilli lider Heydər Əliyevin arzularının şəhəri olan Sumqayıtın tərəqqisində gənclər də mühüm rol oynayırlar. Sumqayıt sakinlərinin elm, mdəniyyət, idman və digər sahələrdə uğurlu nəticələr əldə etdiklərini vurğulayan şəhər rəhbəri və bunun davamlı olacağına inandığını diqqətə çatdırıb və gənclərə yeni-yeni nailiyyətlər arzulayıb.

Sonra gənclər və idman naziri Fərid Qayıbov Gənclər Paytaxtının rəmzi açarını icra başçısına təqdim edib. Nazir Ulu öndərin gənclərə böyük qayğı və diqqət göstərdiyini, gənclərin Azərbaycanın dünyada tanınmasında böyük rol oynadığını bildirib. Azərbaycanda 400-ə yaxın gənclər təşkilatının olduğunu vurğulayan Fərid Qayıbov ölkənin gələcəyinin onların əlində olduğunu deyib. O, Sumqayıtda il ərzində müxtəlif yerli və beynəlxalq tədbirlərin keçiriləcəyini də diqqətə çatdırıb.

Rəsmi çıxışlardan sonra Prezident mükafatına layiq görülmüş gənclər təltif edilib, Gənclər Günü ilə bağlı videoçarx nümayiş olunub.

Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri Şahin İsmayılov ilə Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov Prezident mükafatına layiq görülənlərin gələcək illərdə daha böyük nailiyyətlərə imza atacaqlarına, Azərbaycanı ölkə xaricində uğurla təmsil edəcəklərinə əminliklərini ifadə ediblər. Sonra Sumqayıt Gənclər Paytaxtının loqo və maskotu ictimaiyyətə nümayiş olunub, ardınca ilin gəncləri mükafatlandırılıb.

Mərasimdə müxtəlif beynəlxalq arenalarda Azərbaycanı layiqincə təmsil etmiş və ilboyu aktiv fəaliyyət göstərən Sumqayıt gənclərinə şəhər icra hakimiyyətinin başçısı adından fəxri fərmanlar təqdim edilib.

Tədbir şəhərin mərkəzində təşkil olunmuş konsert proqramı ilə yekunlaşıb. Müğənnilər Miri Yusif, Murad Arif, Mardan, Nigar Camal, Gülyaz və Gülyanaq Məmmədovaların, Çinarə Məlikzadənin ifaları alqışla qarşılanıb.

*XQ*

# "Xəyalların qanadlarında" rənglərin nağılı



**Milli İncəsənət Muzeyində Xalq rəssamı, müasir təsviri sənətin tanınmış nümayəndələrindən olan Sirus Mirzəzadənin "Xəyalların qanadlarında" adlı fərdi sərgisinin açılış mərasimi keçirilib.**

Sirus Mirzəzadə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi və Moskva Ali Rəssamlıq-Sənaye Məktəbinin məzunudur. 1970-ci illərdən özünəməxsus yaradıcılıq yoluna başlayıb. Monumental, dəzgah rəngkarlığı, eləcə də qrafika sahələrində özünəməxsus bədii irs yaradıb və milli rəssamlıq məktəbinə böyük töhfələr verib. Onun ənənə və müasirlik üzərində qurulan əsərləri seçilən dəst-xətə malik olmaqla özündə rəssamın poetik düşüncə tərzini, dünyaya fəlsəfi münasibətini, gözəlliyə vurğunluğunu və bu kimi bədii xüsusiyyətləri əks etdirir.

Mədəniyyət Nazirliyi və Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə reallaşan sərgidə muzeyin direktoru, sənətşünaslıq doktoru Şirin Məlikova, Xalq rəssamları Arif Hüseynov, Natiq Əliyev və Səlhəb Məmmədov, Xalq yazıçısı Natiq Rəsulzadə və başqaları çıxış ediblər.

Sərgidə 80 yaşlı rəssamın 100-ə yaxın rəngkarlıq və qrafika əsəri, eləcə də müəllifi olduğu monumental rəngkarlıq nümunələrinin fotoşəkilləri nümayiş etdirilib.

Xalq rəssamının bədii fəaliyyətinin aparıcı istiqamətini təşkil edən monumental boyakarlıq sahəsi – Bakı, eləcə də digər şəhər və rayonlarda yerləşən binaları bəzəyən freska, mozaika və vitrajların fotoşəkilləri sərginin bir hissəsini təşkil edir və rəssamın çoxşaxəli yaradıcılığı haqqında dolğun təsəvvür yaradır.

*XQ*

BEYNƏLXALQ HƏYAT

# Türkiyə: fələstinlilərin "sürgün edilməsi" qəbuledilməzdir

**ABŞ Prezidenti Donald Trampın Qəzza qaçqınlarının qonşu ərəb dövlətlərinin ərazilərində yerləşdirməklə bağlı gözlənilməz təklifi Yaxın Şərq ölkələrində kəskin mübahisələrə səbəb olub. Türkiyə rəsmisi də bu məsələ ilə bağlı öz prinsipial mövqeyini açıqlayıb.**



Türkiyənin xarici işlər naziri Hakan Fidan Qətərin paytaxtı Dohada həmkarı Məhəmməd bin Əbdülrəhman Al Tani ilə birg keçirdiyi mətbuat konfransında bu ideyanın Fələstin xalqının milli maraqlarına zidd olduğunu bildirib. Ankara belə avtoritar yanaşmanı qəbul etmir.

Türkiyənin xarici siyasət idarəsinin rəhbəri həmçinin qeyd edib ki, fələstinlilərin doğma yurdlarından zorla çıxarılaraq başqa ölkələrə göndərilməsi insan hüquqlarının pozulması deməkdir. H.Fidan beynəlxalq ictimaiyyəti Ağ evin bu planının qarşısını almaq üçün səylərini birləşdirməyə çağırıb.

Türkiyəli nazir suriyalıların ən zəruri ehtiyaclarının ödənilməsi istiqamətində Qətər dövlətinin göstərdiyi dəstəyi yüksək dəyərləndirərək deyib: "Biz bu istiqamətdə birlikdə işləyirik. Qətərin bu humanitar təşəbbüslərini təqdir edirik. Bunlar pozitiv addımlardır".

H.Fidan vurğulayıb ki, bu gün Suriyadakı bütün silahlı dəstələrin vahid milli ordunun rəhbərliyi altında birləşməsi vacibdir: "Eyni zamanda, İŞİD terrorçuları ilə mübarizə çərçivəsində PKK təşkilatı və onun Suriyadakı uzantısı YPG yaraqlıları ilə mübarizə davam etdirilməlidir. Hazırda Suriyanın yeni hakimiyyəti bu istiqamətdə səylərini davam etdirir. Türkiyə bu prosesi yaxından izləyir. Ankara ümid edir ki, problem sülh yolu ilə həll olunacaq, əks təqdirdə Türkiyə Suriyada terrorun davam etdirilməsinə seyrçi qala bilməz".

H.Fidan çıxışında yenidən İsrail–Fələstin münaqişəsinə qayıdaraq deyib ki, Türkiyə Qəzzada İsrail ilə HƏMAS arasında atəşkəs razılaşmasını dəstəkləyir, bununla bərabər bölgədə dayanıqlı sülhün əldə olunması üçün "iki millət, iki dövlət" prinsipinin həyata keçirilməsinə çalışır. Onun fikrincə, bu məsələdə lazımi irəliləyiş əldə olunmazsa, tərəflər arasında döyüşlər təkrarlana bilər və bu, öz növbəsində, sabitliyin təhdid olunması üçün şərait yaradar.

Türkiyənin xarici işlər naziri, həmçinin qeyd edib ki, prezident Barak Obamanın dönəmində Ağ ev PKK və YPG yaraqlılarına guya İŞİD terror qruplaşmasına qarşı mübarizə apardıqlarını yardım edirdi. ABŞ faktiki olaraq kürd separatçılarını dəstəkləyirdi. Bu siyasət Türkiyənin milli maraqları ilə tam ziddiyyəyət təşkil edirdi. .

Türkiyə ümid edir ki, Ağ evin yeni sahibi prezident Tramp keşmiş dövlət başçıları Obama və Baydendən fərqli olaraq bu məsələdə daha ədalətli mövqe nümayiş etdirəcək. Bu isə Vaşinqtonla Ankara arasında əlaqələrə yeni dinamizm gətirə bilər.

PKK terrorçuları İŞİD-lə mübarizə devizi altında bölgədə ağır zorakılıqlar törətməkdə davam edir. Ankara hesab edir ki, İŞİD yaraqlıları ilə mübarizəyə bütün region dövlətləri qoşulmalıdır. H.Fidanın sözlərinə görə, Türkiyə bu istiqamətdə İraq, Suriya və İordaniya ilə ilkin danışıqlar aparır.

Qətərin xarici işlər naziri isə, öz növbəsində, ölkəsinin fələstinli qaçqınların qonşu ərəb dövlətlərinin ərazilərində yerləşdirilməsi ideyasını dəstəkləmədiyini bildirib. Qətər rəhbərliyi də əmindir ki, fələstinlilərin öz müstəqil dövlətlərini yaratmaq haqqı tanınmalıdır.

***Məsaim ABDULLAYEV***
***XQ***

Günün müşahidəsi

**Dəstə-dəstə qızlar, oğlanlar...səhərlər təhsil müəssisəsinə, kimi isə işə tələsirlər. Yolumun "Koala" parkına düşən hissəsində çəliyini özünə dayaq edərək, var-gəl edən yaşlı kişilər, qadınlar səhər havasını ciyərlərinə çəkirlər. Günə idmanla başlayanlar da yollarını buradan salırlar.**

# Tüstüyə bürünən "gender bərabərliyi"?

Həftənin ilk iş günü də piyada işə getmək qərarına gəldim. Evdən çıxıb "Azadlıq prospekti"ndən təzəcə yola düzəlmişdim ki, hardansa buğum-buğum çıxan acı tüstü dalğası bir andaca gözümə, nəfəsimə doldu. Tanış mənzərədir, nə edəsən?! Qalıb gözləməlisən ki, səndən 1 addım qabaqda gedənlərlə ara məsafə çoxalsın və zəhrimarın tüstüsünü udmayasan. Ya da səndən qabaqda siqaret tüstülədə-tüstülədə gedən kişiləri qabaqlayasan ki, bu da qadınlar üçün müşkül məsələdir.

desəm, yəqin, yalan olmaz. Qarşımda "parovoz" kimi tüstülədənlər qızlar idi. 2 qız barmaqları arasında sıxdığı elektron siqareti ağzına aparan kimi, sanki tüstü burulğanı əmələ gəlirdi. Digər 2-si isə barmaqlarının arasında saxladıqları siqaretlərdən burula-burula çıxan tüstünü əlləri ilə yelləyərək əylənirdi. Başqa çıxış yolum yox idi. "Azadlıq prospekti" boyunca düz yolu qızlarla daban-dabana sonacan getməli, üfürdükləri tüstünü udmalı idim.

Deməli, piyada gəzməklə də sağlamlı-



Adətən, ana-bacılarını, uşaqlarını vecinə almayan kişilər elə küçədəkilərə də bu cür yanaşırlar. Siqaret damaqlarında irəlilədikcə, 100–150, bəlkə də daha çox uşaq, qadını zəhərləyirlər. Hələ insanların kütləvi hərəkət etdiyi yerləri demirəm. Məsələn, elə yolumun üstündə metronun 28 May stansiyası tərəfdə 1 nəfərin "buraxdığı" tüstü onlarca insan üçün təhlükə mənbəyidir.

Beləcə düşünə-düşünə siqaret çəkdiklərini zənn etdiyim qarşıdakı 2 cavan oğlanı tərs-tərs süzürəm. Onlardan biri "Yiyəsizlər. Bunları kim buraxıb küçəyə", digərinin isə "Gəl qabaqlayaq, arxada nə qədər tüstülədirlər, tüstülətsinlər", – deyərək, özlərindən irəlidə gedən qızlardan güllə kimi uzaqlaşırlar.

Gördüyüm mənzərə məni sarsıtdı

ğımızı qoruya bilmirik. Özüm bir yana, o balacaları yeriməyə məcbur etməyimiz də mənim üçün mənasız oldu. "Koala" parkı tərəfdə qızların birinin tulladığı və hələ də tüstülənən siqaretin kötüyünü yemək gözləyən göyərçinlərdən birinin götürməsi də acı səhnələrdən biri idi, səhərin havasını udmaq həvəsi üçün çətinliklə çəliklə irəliləyən qocaların cidd-cəhdi də.

Ən böyük faciə isə sağlam gələcəyə bu cür "sağlam" qadınlarla getməyimizdir. Adətən, yazılarımda gender bərabərsizliyinə tez-tez toxunur, qızlarımızı həyatın bütün sahələrində fəallıq göstərməyə çağırıram. İndi isə düşünürəm ki, gender bərabərliyi budursa, o bizə lazım deyil.

***Leylа URBANOVA***
***XQ***

# ABŞ Prezidentinin "gömrük şlaqbaum"u

**ABŞ Prezidenti Donald Tramp Kanada, Meksika və Çindən idxal olunan mallara gömrük rüsumlarının tətbiq edilməsi haqqında sərəncam imzalayıb. Bu, qarşı tərəflərin tədbirlərinə rəvac verib, eyni zamanda, inflyasiyanın sürətlənməsi təhlükəsi və iqtisadi şoklar riski yaradıb.**

Meksika da ABŞ-ın rüsum artımı qərarına tarif və qeyri-tarif tədbirləri ilə cavab verəcək. Tariflər təkcə Kanada və Meksikaya deyil, ABŞ-ın özünə də zərər verəcək.

ABŞ-ın Kanada və Meksikaya tətbiq



Gömrük rüsumları ABŞ-la qonşu olan Kanada və Meksikadan idxal olunan məhsullar üzrə 25 faiz, Kanadadan daxil olan xam neft üçün isə 10 faiz səviyyəsində müəyyən edilib. 10 faiz rüsumlar isə Çindən gələn mallara şamil ediləcək.

Ağ evin rəhbəri bildirib ki, rusumların tətbiq edilməsi qeyri-qanuni mühacirlərin və narkotiklərin yaratdığı ciddi təhlükələrlə bağlıdır: "Biz amerikalıları qorumalıyıq və hamımızın təhlükəsizliyini təmin etmək prezident kimi mənim məsuliyyətimdir", – Tramp "Truth Social" sosial şəbəkədə yazıb.

İndiyədək ABŞ, Kanada, Meksika arasında ticarətə heç bir əlavə tarif tətbiq edilməyib. Trampın birinci prezidentliyi dövründə Vaşinqton, Ottava və Mexiko azad ticarət haqqında saziş imzalayıblar. USMCA (United States–Mexico–Canada Agreement) adlanan sazişin imzalanmasını Tramp tələb edib. Görünür, o vaxt ABŞ-ın maraqları indikindən fərqli olub.

Meksika və Kanada ABŞ-ın ən böyük ticarət tərəfdaşıdırlar. Vaşinqton Meksikonun ixracatının 80 faizindən çoxunu alır. ABŞ ilə Kanada isə bir-birinə təkcə coğrafi deyil, həm də iqtisadi baxımdan yaxındır. Onların arasında ticarətin həcmi 2023-cü ildə 1,8 trilyon dollara çatıb. ABŞ-ın Çinlə ticarətinin həcmi isə 643 milyard dollar təşkil edib.

Kanada həm də ABŞ-ın ən böyük xarici neft tədarükçüsüdür. Ötən ilin yanvar–noyabr aylarında ABŞ-a 90 milyard dollar dəyərində yanacaq göndərilib. Meksikanın göndərdiyi yanacağ isə 11 milyard dollar olub. Göründüyü kimi Kanada və Meksika ABŞ üçün əsas neft tədarükçüləridir.

Ekspertlər qeyd edirlər ki, onilliklər ərzində avtomobil şirkətləri regionda təchizat zəncirləri qurublar. "S&P Global Mobility"nin məlumatına görə, ABŞ-da satılan avtomobillərin və yüngül yük maşınlarının beşdə birindən çoxu Kanada və ya Meksikada istehsal edilib. 2023-cü ildə amerikalılar Meksikadan 69 milyard dollar, Kanadadan isə 37 milyard dollar dəyərində avtomobil və yüngül yük maşınları idxal ediblər. Bundan başqa, Meksikadan 78, Kanadadan isə 20 milyard dollarlıq avtomobil hissələri gətirilib. Məsələn, "Ford"un F seriyalı "pikap" avtomobillərindəki mühərriklər və məşhur "Mustang" idman kupesi Kanadada hazırlanır.

Bəs yeni tariflərin tətbiqi iqtisadi sahədə nə kimi nəticələrə səbəb olacaq? Gömrük rüsumlarının tətbiqi Kanada və Meksika iqtisadiyyatına təsir edəcək. İqtisadçıların hesablamalarına görə, bu ölkələr ümumi daxili məhsullarının (ÜDM), təxminən, 2 faizini itirə bilər. ABŞ iqtisadiyyatının isə cəmi 0,3 faiz azalacağı proqnozlaşdırılır.

Bu arada Tramp deyib ki, Kanada vergiləri azaltmaq və gömrük rüsumlarından yayınmaq üçün ABŞ-a 51-ci ştat kimi qoşulmalıdır: "Biz Kanadaya subsidiya vermək üçün yüz milyardlarla dollar ödəyirik. Nə üçün? Heç bir səbəb yoxdur. Onların heç nəyinə ehtiyacımız yoxdur. Məhdudiyyətsiz enerjimiz var, maşınlarımızı özümüz hazırlamalıyıq, istifadə edə biləcəyimizdən daha çox meşələrimiz var. Pulumuz da çoxdur".

Tramp qeyd edib ki, böyük subsidiyalar olmadan Kanada həyat qabiliyyətli ölkə kimi mövcud olmayacaq: "Buna görə də Kanada bizim arzu etdiyimiz 51-ci ştata çevrilməlidir. Bu, Kanada xalqı üçün aşağı vergilər, daha yaxşı hərbi müdafiə deməkdir. Həmçinin bu, sıfır tarif deməkdir".

Kanada hökuməti ümumi dəyəri 155 milyard dollar olan ABŞ mallarına 25 faizlik cavab rüsumları tətbiq edəcək. Bu barədə Baş nazir Castin Trüdo bildirib. Deyib ki, tarif paketinə 4 fevraldan etibarən 30 milyard dollarlıq mallara dərhal, 125 milyard dollarlıq məhsullara isə 21 gün ərzində əlavə rüsumlar daxildir. Baş nazir xalqı marketlərdən ABŞ məhsulları yerinə Kanada məhsullarını almağa çağırıb. Trüdo əlavə edib ki, Ottava enerji və kritik minerallar sahəsində ABŞ-a qarşı cavab tədbirlərini də nəzərdən keçirir.

Kanadanın Alberta əyalətinin rəhbəri Daniel Smit bildirib ki, Kanada Birləşmiş Ştatlardan başqa, digər ölkələrdən daha çox mal alır – "Böyük Britaniya, Fransa, Almaniya, İtaliya və Vyetnamdan birlikdə aldığından daha çoxdur". O, Ottava üçün digər ölkələrlə siyasi və ticarət əlaqələrini genişləndirmək üçün yeni fürsət açıldığını bildirib: "Artıq bir müştəridən asılı olmağa son qoymağın vaxtı çatıb. Biz rifahımızı məhdudlaşdırmağı və özümüzə zərər vurmağı dayandırmalıyıq".

etdiyi gömrük tarifləri başqa ölkələrə, o cümlədən Almaniyaya da təsir edəcək. Meksika məhsullarına tətbiq edilən tariflər alman şirkətlərinə, xüsusən də avtomobil sənayesinə də ciddi zərbə vura bilər. Əksər alman avtomobil istehsalçıları və bir çox komponent təchizatçıları Meksikadan ucuz istehsal sahəsi kimi istifadə edirlər. Oradan öz məhsullarını ABŞ bazarına çıxarırlar. "Volkswagen", "Audi" və "BMW" şirkətlərinin Meksikada zavodları var. "Mercedes-Benz" isə bu ölkədə "Nissan" şirkəti ilə birgə avtomobillər istehsal edir. Tarif tətbiqindən sonra avtomobillərin və onların hissələrinin qiymətləri qalxacaq və ABŞ bazarında yerli istehsalla rəqabət apara bilməyəcək. Alıcılar daha ucuz və keyfiyyətli avtomobillərə üstünlük verəcəklər.

Bir çox alman avtomobil istehsalçısının Çində də fabrikləri var, lakin onların istehsalı, ilk növbədə, Çin bazarına yönəlib. "Advyce & Company" konsaltinq şirkətinin eksperti Stefan Hecht deyir: "Vaşinqtonun Pekinlə bağlı qərarı Almaniyaya təsir edəcək. Çinin avtomobil istehsalçılarının ABŞ bazarına daxil olmasına maneələrin artması fonunda onlar öz məhsullarını Avropaya yönəldəcək".

Hadisələrin bu fonunda ABŞ prezidenti tezliklə Avropa İttifaqından (Aİ) idxal olunan mallara da rüsum tətbiq etmək niyyətindədir. Bazar günü Ağ evin rəhbəri deyib: "Mənim cədvəlim yoxdur, lakin bu, tezliklə baş verəcək". Onun sözlərinə görə, ABŞ-ın Aİ ilə ticarət kəsiri 300 milyard dollara çatıb: "Atlantik okeanının o tayındakı tərəfdaş ABŞ-dan heç bir avtomobil və ya kənd təsərrüfatı məhsulu almır. ABŞ isə "hər şeyi alır".

Beləliklə, Tramp gömrük tariflərinin tətbiqi dairəsini genişləndirmək istəyir. Bu, istehsalçıları risk altına alaraq ixracın səviyyəsini aşağı salacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qərbi azərbaycanlıların Daşkənd görüşü

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) ölkədə yaşayan Qərbi azərbaycanlılarla görüş keçirilib.**




Mərkəzin direktoru Akif Marifli ermənilərin həm Azərbaycan ərazisində, həm də Qərbi azərbaycanlılara qarşı törətdiyi etnik təmizləmə və soyqırımı siyasətindən danışıb. O, XIX–XX əsrlərdə azərbaycanlıların Qafqazın ictimai-siyasi, ədəbi-mədəni həyatındakı rolu haqqında söhbət açıb.

AMM-nin əməkdaşı Kərimulla Məmmədzadə öz ata-baba torpaqlarına qayıtmaq amalı ətrafında sıx birləşməyin vacib olduğunu bildirib, bununla bağlı Qərbi Azərbaycan İcmasının xüsusi konsepsiya hazırladığını diqqətə çatdırıb.

Soydaşlarımızdan İsmayıl Məmmədov, Süleyman Tağıyev və başqaları uzun



Özbəkistanda yaşayan Qərbi Azərbaycanlılar İctimai Birliyinin sədri İlham Abdullayev Azərbaycan Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı məqsədyönlü iş apardığını, son 200 il ərzində həmvətənlərimizin deportasiya və soyqırımına məruz qaldığını bildirib, tarixi abidələrimizin, məscidlərimizin dağıdıldığını diqqətə çatdırıb.

illər Vətəndən kənarda yaşayan soydaşlarımızın vahid bir təşkilatda birləşməsi, onların əlaqələndirilməsi baxımından ictimai birliyin vacib olduğunu bildiriblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 24 (30718) 4 fevral 2025-ci il, çərşənbə axşamı

İdman

# AFFA-nın inkişaf strategiyası qəbul edilib



**AFFA-nın prezidenti Rövşən Nəcəfin iştirakı ilə İcraiyyə Komitəsinin növbəti iclası keçirilib. Vitse-prezident Sərxan Hacıyev gündəlik barədə məlumat verib.**

İcraiyyə Komitəsi Cahangir Fərəcullayevi AFFA-nın baş katibi vəzifəsinə təyin edib. Qurumun 2025-ci il üçün büdcəsi təsdiqlənib. 2025-2028-ci illəri əhatə edən inkişaf strategiyası qəbul olunub.

İclasda Misli Premyer Liqasında klub sayının artırılması məsələsi müzakirə olunub. 2025/2026-cı illər mövsümündən komanda sayının 10-dan 12-yə artırılması qərara alınıb. Misli Premyer Liqasında 2025/2026-cı illər mövsümündən legioner limitinin ləğvi qərara alınıb.

*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# 67-ci "Qremmi" təqdimatı



***ABŞ-da "Qremmi" mükafatının 67-ci təqdimetmə mərasimi keçirilib. Tədbir Los-Ancelesin "Crypto.com Arena" idman kompleksində təşkil edilib. Amerikalı müğənni Çappell Ron "Ən yaxşı yeni ifaçı" nominasiyasını qazanıb. İndiyə qədər ən çox "Qremmi" mükafatı əldə edən Beyons isə bu il ilk dəfə "İlin albomu" nominasiyasının qalibi olub və bu mükafatın ilk qaradərili ifaçısı kimi tarixə düşüb.***

Tədbiri artıq neçə ildir ki, cənubi afrikalı komediya ustası, aktyor və televiziya aparıcısı Trevor Noa aparır.

Xatırladaq ki, "Qremmi" ABŞ səsyazma şirkətləri assosiasiyası tərəfindən 14 mart 1958-ci ildə təsis edilən musiqi mükafatıdır. Mükafat 2012-ci ilə qədər 108 kateqoriya və 30 fərqli musiqi tərzini əhatə etsə də, həmin il edilmiş dəyişiklikdən sonra 78 kateqoriyada verilir. Mükafatın adı qramofon aparatından götürülüb.

***S.FİDAN***
***XQ***

# Hidayət Heydərov "İlin kişi cüdoçusu"dur

***"Paris-2024" Yay Olimpiya Oyunlarında qızıl medal qazanmış Azərbaycan cüdoçusu Hidayət Heydərov Beynəlxalq Cüdo Federasiyası tərəfindən "İlin kişi cüdoçusu" seçilib. Cüdo üzrə milli komandanın baş məşqçisi Riçard Trautman isə "Ən yaxşı kişi komanda məşqçisi" adına layiq görülüb.***



H.Heydərov nüfuzlu mükafata layiq görüldüyü üçün çox xoşbəxt olduğunu deyib:

– Bu mükafat təkcə mənim deyil, bütün Azərbaycan xalqının mükafatıdır. Mənim arxamda böyük bir komanda durur. Azərbaycan Cüdo Federasiyasına, ailəmə, sevənlərimə təşəkkür edirəm.

2024-cü ilin "Ən yaxşı kişi komanda məşqçisi" adına layiq görülən Riçard Trautman da media ilə fikirlərini bölüşüb:

– Möhtəşəm komandamıza dərin təşəkkürümü bildirirəm. Belə əzmkar atletlər, peşəkar məşqçilər və inanılmaz bir komanda ilə çalışmaq mənim üçün böyük şərəf idi. Mən tək yox, biz hamımız birlikdə tarix yazdıq. Hər birinizə minnətdaram! Qeyd edək ki, Hidayət Heydərov 2024-cü ildə 73 kiloqram çəki dərəcəsində Olimpiya, Dünya və Avropa çempionu olub. Komandamızın digər cüdoçusu Zelim Kotsoyev isə 100 kiloqram çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Paris Olimpiadasında uğurla çıxış edən Azərbaycan komandası medal sıralamasına görə, yalnız Yaponiyadan geri qalaraq, 2-ci pillədə qərarlaşıb.

# Mariya Stadnik idmanla vidalaşdı

***Dünya güləşinin canlı əfsanəsi Azərbaycan güləşçisi Mariya Stadnik idmançı kimi peşəkar karyerasını başa vurub. Titullu idmançı bu barədə "İnstaqram"dakı şəxsi hesabında paylaşım edib:***



– Mən adımı dünya qadın güləşi tarixinə yazdım. Bu tarixi mənimlə birlikdə yaradan hər kəsə minnətdaram. İndi isə həyatımın bu səhifəsini bağlayıb yeni bir tarix yazmağın vaxtıdır. Güləş, hər şey üçün sənə təşəkkür edirəm.

Qeyd edək ki, ikiqat Dünya, onqat Avropa çempionu və dördqat (2 gümüş və 2 bürünc) Olimpiya mükafatçısı olan Mariya Stadnik Azərbaycan idmanının yeganə beşqat Olimpiada iştirakçısıdır. Avropa Oyunlarının və İslam Həmrəyliyi Oyunlarının 2 qat qalibi olan idmançı nəinki ölkəmizdə, dünyanın bir çox ölkələrində qadın güləşçilər üçün mübarizə əzmi və çalışqanlığı ilə nümunə, kumir olub.

İdman karyerasını başa vuran Mariya bundan sonra Azərbaycan Güləş Federasiyasında qadın güləşi üzrə koordinator vəzifəsində çalışacaq.

***L.QURBANOVA***
***XQ***

Kainatın sirləri

# Hər şeyi təzələyən zaman

## *İnsanın təbii ritmlərə uyğunlaşması*



***Bu günlərdə alban şairi Jeton Kelmendinin şeirlər kitabını redaktə edirdim. Bir misra diqqətimi çəkdi: "Zamana liderlik edir zaman". Bu bircə misra özündə çox böyük mətləbləri ehtiva edir. Hər kəs zamandan şikayətçidir. "Vaxt necə də sürətlə uçur" deyə gileylənənlərin çoxu vaxtın qədrini bilməyənlərdir. Son zamanlar isə planetar proseslər nəticəsində zaman da öz ritmini sürətləndirib. Deməli, şairin sözüylə desək, artıq zaman özünə liderlik etmək iqtidarında deyil.***

Lap bu yaxınlarda isə bir sıra Qərb araşdırmaçıları belə bir qənaətə gəliblər ki, günümüz 24 saatdan 16 saata qədər qısalıb. Alimlər düşünür ki, bu, Yer kürəsinin öz oxu ətrafında fırlanması ilə əlaqəli bir prosesdir. Yer daha sürətlə fırlanmağa başlayıb.

Bu fikirlər nə dərəcədə həqiqəti əks etdirir? Yerin sürətlənməsi və günün qısalması öz-özünə baş vermir. Zamanın sürətlənməsi qarşıdan gələn kainat dəyişikliklərinin əsas əlamətidir. Planet yeni dövrə qədəm qoyur, Kvant sıçrayışı etməyə hazırlaşır. Həqiqətən də yerin elektromaqnit sahələrində dəyişikliklər qeydə alınır. İnsan orqanizmi isə planetin təbii ritmləri ilə sinxronlaşdığı üçün bioloji saata uyğun yaşamağa davam edir. Buna görə də insanlar arasında hədsiz yorğunluqla nəticələnən dissonans yaranır.

Sözsüz, Tanrının iradəsindən kənarda heç bir qeyri-adi hadisə baş verə bilməz. Portuqaliyalı yazıçı və professor Joze Rodriqes Duş Santuş özünün "Tanrının formulu" əsərində soruşur ki, kainat, əslində, nədir? Bəlkə, onu semantik planda da öyrənmək lazımdır? Bəlkə, onun musiqisini də dinləyək, poeziyasını da başa düşək? Bəlkə bu dünyanı metanarrativ bir mətn kimi qəbul edək?

Alimin fikrincə, kainatın sirrini gizlədən bir pərdə var və o bizə həqiqəti görməyə imkan vermir. Vaxtın nəzarətdən çıxması heç də dünyanın nizamının pozulması demək deyil. Dünyanı nizamlayan ilahi bir qüvvə var. Qeyri-müəyyənlik prinsipi və xaos teoremləri sübut edir ki, gerçək olanın mahiyyəti əlçatan deyil. Kainat əksliklərin vəhdəti dialektikası əsasında hərəkət edir. Nüvə ətrafında dövr edən elektronlar, atomların müntəzəm yenilənməsi, molekulların yerdəyişməsi, planetlərin orbital hərəkəti – kosmos bu ritmlərlə döyünür.

Hər şeydə sinxronizm, hər şeydə simmetriya var. Nizam xaosdan yaranır. Vaxtın sürətlənməsi belə nizama xidmət edir. Laplasın dediyi kimi, gələcək də keçmiş kimi artıq müəyyən edilib. Müşahidəçilərin zaman qavrayışı onların öz hərəkət sürətindən asılıdır. Müşahidəçi işıq sürətinə nə qədər yaxın sürətlə hərəkət edirsə, onun saatı o qədər yavaş hərəkət edir. Yəni həmin müşahidəçinin özü üçün zaman normaldır, bir dəqiqə elə bir dəqiqədir. Amma daha az sürətlə hərəkət edənlərə isə elə gəlir ki, onun saatı yavaş gedir. Eynilə işıq sürətinə yaxın sürətlə hərəkət edən müşahidəçiyə elə gəlir ki, Yer Günəşin ətrafında inanılmaz dərəcədə sürətlə hərəkət edir. Ona elə gələcək ki, Yerdə zamanın sürəti artıb.

Eynşteyn fəza-zaman əyriliyini kəşf etdi. Maddi cism Günəşə, yaxud başqa planetlərə yaxınlaşanda cazibə qüvvəsinin təsiri altında həmin nəhəng kütləyə sarı cəzb olunur, ona doğru yönəlir. Beləcə, fəza əyilməyə başlayır. Məkan və zaman bir-birinə bağlı olduğu üçün zaman da əyilir. Nisbilik nəzəriyyəsi göstərdi ki, qravitasiya daha güclü olan yerdə zaman ləng keçir, zəif olan yerdə isə sürətlə keçir.

Kainatın hər bir nöqtəsində zaman müxtəlif cür keçir. Portuqaliyalı alim roman kimi təqdim etdiyi elmi əsərində (bu əsəri bu günün aparıcı janrı hesab olunan non fikşn – sənədli nəsr kimi də qəbul etmək olar) bu məsələlərə kifayət qədər aydınlıq gətirir. Eyni zamanda, Eynşteynin Tanrı formulunun kodunu açmağa çalışır. Bütün divarlardakı tüfənglər əvvəl-axır açılır, heç biri butafora kimi qalmır. Ayda zaman Yerdəkindən daha tez keçir, öz növbəsində, Yerdə zaman Günəşdəkindən daha tez keçir. Obyektin kütləsi nə qədər böyükdürsə, zaman onun səthində o qədər ləng keçir.

Beləliklə, materiya genişləndikcə qravitasiya təsiri zəifləyir və zamanın sürəti artır. Tarixin, təhtəlşüurun simvolu olan vaxt Prustvari dillə desək, omphalos (oxu: ana bətni) kimi fasiləsiz olaraq dünyamızı təzələyir.

***Kənan HACI,***
***yazıçı-publisist***

# *Kartof şirəsi – turşuluğun çarəsi*

***Xalq təbabəti ilə məşğul olan həkimlər bəzi xəstələrə kartof suyu içməyi tövsiyə edirlər. Bildirirlər ki, bu şirə turşuluğu azaldaraq mədənin pH səviyyəsini tənzimləyir. Bu, xüsusilə mədə yanması hissi və qastrit kimi problemlər yaşayan şəxslər üçün faydalıdır.***

Kartof suyunda olan antiinflamatuar xüsusiyyətlərə malik olan bəzi maddələr mədə-bağırsaq sistemindəki iltihabı azaldır. Mədənin selikli qişasını qoruyur. Bağırsaqların hərəkətini nizamlayaraq həzmi yaxşılaşdırmağa kömək edir. Kartof suyu, orqanizmə zərər verən sərbəst radikalları və toksinləri təmizləyərək bədənin detoksifikasiya prosesini dəstəkləyir, bəzi qadın xəstəliklərində kömək edir.

Kartof suyu içməyin bəzi riskləri də var. Belə ki, kartof suyu birdəfəyə çox miqdarda içildikdə onda olan solanin adlı maddə zəhərlənməyə səbəb olur. Ona görə şirə çəkərkən kartofu təmizləmək və yaşıl hissələrini çıxarmaq vacibdir.

Bəzi insanlarda kartof suyu içərkən allergiya yarana bilər. Bu, nadir hallarda olsa da, şişkinlik, qızartı və hətta qıcolmalar kimi reaksiyalara səbəb ola bilər.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

# Yağmursuz, amma duman və külək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 4-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Gecə 4-7°, gündüz 8-13° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-15° isti, dağlarda gecə 6-11° şaxta, gündüz 3-8° isti olacaq.**

***Q.QASIMOV***
***XQ***

***✓ 2022-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Məmmədov Xaliq Eyvaz oğlunun adına verilmiş AD seriyalı, 0061860 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ 2022-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Behbudov Ceyhun Allahverdi oğlunun adına verilmiş AD seriyalı, 0062536 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ 2022-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Məmmədli Tural Bayram oğlunun adına verilmiş AD seriyalı, 0061854 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ 2017-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əsgərov Ramazan Qurban oğlunun adına verilmiş AD seriyalı, 0034932 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

Bakı Dövlət Universiteti filologiya fakültəsinin 1984-cü il məzunları tələbə yoldaşları Mətanət Babayevaya həyat yoldaşı

**YAŞAR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3065
SİFARİŞ 240
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00